# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru"




4

№ 078 (7246)

SƏS

8 may 2025-ci il.
Qiymətі 60 qəpik

## Azərbaycan -Vyetnam: əməkdaşlıq üçün yeni mərhələ



2

**Prezident İlham Əliyev: "Əminəm ki, səfərin nəticələri uğurlu olacaq və əldə edilmiş razılaşmalar konkret layihələrə çevriləcək"**

# Hindistan-Pakistan münaqişəsi: NÜVƏ MÜHARİBƏSİ TƏHLÜKƏSİ



14

## Qadın və cinayət: biz tək özümüz üçün yaşamırıq



11

## Azərbaycana turistlər ən çox hansı ölkələrdən gəlir?



16

## Uşaq bezi alarkən hansı məqamlara diqqət edək?



13

## İmkan vermədik, yoxsa danışardı RADİO



6

## Biz faşizmə 2 dəfə qalib gəldik



8

# Azərbaycan -Vyetnam: əməkdaşlıq üçün yeni mərhələ

## Prezident İlham Əliyev: "Əminəm ki, səfərin nəticələri uğurlu olacaq və əldə edilmiş razılaşmalar konkret layihələrə çevriləcək"

***Ərazi bütövlüyünü təmin etmiş və suveren Azərbaycan özünün beynəlxalq və iktərəfli əməkdaşlıq coğrafiyasını daha da genişləndirməkdədir. Ölkəmizin atan nüfuzu fonunda xarici siyasətin əsas istiqamətlərindən biri də Cənubi-Şərqi Asiya ölkələri, o cümlədən Vyetnamla əlaqələrin inkişafına böyük önəm verməsidir.***



Dünən Azərbaycana dövlət səfərinə gələn Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın bu tarixi səfəri də əlaqələrimizin tarixi üçün yeni mərhələnin başlanğıcıdır. Prezident İlham Əliyevin mayın 7-də Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə öncə məhdud tərkibdə, daha sonra geniş tərkibdə görüşü keçirilib. Dünən həmçinin Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ı qəbul ediblər.





Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam mətbuata bəyanatlarla çıxış ediblər.

"Bizim birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var. Bu gün bu və digər istiqamətlərdə məsələlər geniş müzakirə edildi." Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Vyetnamın Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə mətbuata bəyanatında deyib.

"Energetika sahəsində imzalanmış sənədlər və apardığımız mübadilələr deməyə əsas verir ki, yaxın gələcəkdə biz bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik. Əminəm ki, səfərin nəticələri uğurlu olacaq və əldə edilmiş razılaşmalar konkret layihələrə çevriləcək". - deyə dövlətimizin başçısı vurğulayıb.

Dövlətimizin başçısı daha sonra vurğulayıb ki. Biz Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyət göstəririk. Azərbaycan bu təsisatda dörd il sədrlik etmişdir və çox gözəl bir iz buraxmışdır. Bu gün Qoşulmama Hərəkatının daha da sanballı təsisat kimi fəaliyyəti hər iki ölkənin marağındadır. "Bu gün, eyni zamanda, beynəlxalq hüququn aliliyi haqqında fikir mübadiləsi apardıq və burada da heç bir fikir ayrılığı yoxdur", - deyə dövlətimizin başçısı əlavə edib ki, bütün məsələlər ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı əsasında, beynəlxalq hüquq çərçivəsində öz həllini tapmalıdır, bütün mübahisəli məsələlər danışıqlar, sülh yolu ilə həll olunmalıdır.

Dünən Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşü olub.

Bəli, iki ölkə arasında dostluq münasibətləri üçün yeni səhifə açılır.Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycan Respublikasına dövlət səfəri ərəfəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibə verib. Azərbaycan Prezidentinə ünvanlanan "Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın indiki vəziyyətini necə qiymətləndirirsiniz?" sualına cavab olaraq dövlət başçımız bildirib ki, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir və 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib: "O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib".

### İKİ DÖVLƏT ARASINDA MÜNASİBƏTLƏRDƏ YENİ SƏHİFƏ

1983-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri, Vyetnamın böyük dostu Heydər Əliyevin başçılıq etdiyi sovet nümayəndə heyəti bu ölkəyə səfər edir. Həmin səfər keçmiş SSRİ-nin Vyetnamla münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyırdı. Ulu Öndər Heydər Əliyev Vyetnamın birləşməsindən sonra bu ölkəyə səfər edən ilk yüksəkvəzifəli xarici dövlət rəsmisi idi. Əslində, həmin səfərin Vyetnam üçün olduqca böyük, başqa sözlə, həyati əhəmiyyəti var idi. Çünki əzablı Fransa işğalından, ABŞ ilə qanlı müharibədən sonra təzəcə sabitlik və inkişaf yoluna qədəm qoyan Vyetnam regionda gedən geosiyasi proseslər fonunda yenə ciddi təhdidlə üzləşmişdi. Belə bir məqamda dahi Heydər Əliyevin səfəri Vyetnam xalqı və hökuməti üçün böyük dəstək ifadə edirdi. Belə demək olarsa, Ümummilli Liderin səfəri Vyetnam dövləti və xalqı üçün müstəqilliyin, suverenliyin qorunması naminə böyük bir ümid idi.

Məhz həmin səfərdən sonra Ulu Öndər Heydər Əliyev sovet rəhbərliyini Vyetnama iqtisadi və elmi-texniki kömək göstərmək barədə inandıra bilmişdi. Ulu Öndər Heydər Əliyevin 42 il əvvəl sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri təkcə keçmiş SSRİ ilə Vyetnam arasında münasibətlərin dərinləşməsi baxımından deyil, həm də Vyetnam xalqının Azərbaycana isti münasibətinin formalaşmasında xüsusi rol oynayıb.

Dövlətimizin başçısının Vyetnama həmin səfəri həm Ulu Öndərin vyetnamlılarla dostluğunun davam etdirilməsi, həm də müasir dövrdə iki ölkə arasında münasibətlərin genişləndirilməsi üçün mühüm rol oynayıb. Vyetnamın rəhbər şəxsləri ilə görüşlərdə tarixi kökləri olan dostluğun möhkəmləndirilməsinə, ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsinə dair müzakirələr aparılır, bir neçə sənəd imzalanır. 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanq Azərbaycana rəsmi səfər edir. Beləcə yüksəksəviyyəli qarşılıqlı səfərlər ənənəsi yaranır. Bu səfərlər dövlətlər arasında ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafına təkan verərək, iqtisadi, siyasi, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın dərinləşməsinə etibarlı zəmin yaradıb.

Rəsmi səfərlər iki dövlət arasında münasibətlərdə yeni səhifə açıb. "Prezident Çıonq Tan Şanqın səfəri çərçivəsində rəsmi şəxslərlə yanaşı, neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrin işgüzar dairələrinin iştirakı ilə Birinci Azərbaycan-Vyetnam biznes forumu keçirildi", - deyə Azərbaycan Prezidenti müsahibəsində qeyd edib.

### "ÖLKƏLƏRİMİZ ƏN BÖYÜK BEYNƏLXALQ TƏŞKİLATLAR, O CÜMLƏDƏN QOŞULMAMA HƏRƏKATI VƏ BMT ÇƏRÇİVƏSİNDƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIQ EDİR"

Ötən müddətdə iki ölkə milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına sadiqlik prinsipləri əsasında sıx əməkdaşlıq edib, beynəlxalq və regional təşkilatlarda, o cümlədən BMT-də, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) bir-birinə dəstək verib. Hakim partiyalar arasında əməkdaşlıq da iki ölkənin münasibətlərinin inkişafına təkan verir.

2023-cü ilin noyabrında Hanoyda Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında Əməkdaşlıq Sazişi imzalanıb. "Ölkələrimiz ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.", - deyən Azərbaycan Prezidenti bildirib ki, Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir: "2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, biz bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur. Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərir. 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında müqavilə imzalanıb. Neft sahəsində əməkdaşlığımız möhkəm tarixi təməle əsaslanır - çünki Azərbaycan mütəxəssisləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında əsas rol oynayıblar".

Ardı Səh. 3

# Azərbaycan -Vyetnam: əməkdaşlıq üçün yeni mərhələ

## Prezident İlham Əliyev: "Əminəm ki, səfərin nəticələri uğurlu olacaq və əldə edilmiş razılaşmalar konkret layihələrə çevriləcək"

Əvvəli Səh. 2

### "İQTİSADİYYATLARIMIZIN GƏLƏCƏKDƏ DƏ ŞAXƏLƏNDİRİLMƏSİNƏ KÖMƏK EDƏCƏK YENİ ƏMƏKDAŞLIQ İMKANLARI MÖVCUDDUR"

İki ölkə arasında əməkdaşlığın inkişafında İqtisadi-ticari və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının fəaliyyəti əhəmiyyətli rol oynayır. Ölkələrimizin iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, kənd təsərrüfatı, humanitar, turizm, təhsil və sair sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş perspektivlər var. "Ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir", - deyə Azərbaycan Prezidenti İlham Əliyev müsahibəsində söyləyib. İqtisadi-ticari münasibətlərə toxunan dövlətimizin başçısı qeyd edib ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

Azərbaycanın Vyetnamla əlaqələri həm tarixi, həm də müasir dövr baxımından çox önəmlidir. Bu əlaqələr yalnız dövlət səviyyəsində deyil, həm də ədəbiyyat və mədəniyyət sahələrində hər iki xalq arasında möhkəm dostluq körpüsünü yaradıb. Hər iki ölkə müstəqil dövlətlər olaraq öz milli kimliklərini qoruyub saxlamaqla yanaşı, beynəlxalq əlaqələrini genişləndirmək məqsədilə müxtəlif sahələrdə əməkdaşlıq ediblər. Bu əməkdaşlığın ən mühüm sahələrindən biri ədəbiyyat və mədəniyyət sahəsi olub. Azərbaycanın ədəbiyyatını və mədəniyyətini tanıdan, Vyetnamın zəngin mədəni irsini nümayiş etdirən müxtəlif təşəbbüslər, qarşılıqlı tərcümələr və ədəbi mübadilə ölkələr arasındakı dostluq əlaqələrini daha da gücləndirib.







### "SOVET DÖVRÜNDƏ AZƏRBAYCANDA 5 MİNƏ YAXIN VYETNAMLI TƏHSİL ALIB"

Ölkələr arasında digər sahələrlə yanaşı, mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığın kökləri sovet dövrünə gedib çıxır, amma son illərdə daha da inkişaf edib. Prezident İlham Əliyev bildirib: "1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı bəstələyib, onun premyerası 2023-cü ildə Hanoyda olub. 1959-1962-ci illərdə Prezident Ho Şi Minin dəvəti və sovet hökumətinin təklifi əsasında azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada ustad dərsləri keçib və üç film çəkib. O, bu xidmətlərinə görə Vyetnam Sosialist Respublikasının ali "Əmək" ordeni ilə mükafatlandırılıb".

Bütün bunlarla yanaşı, dövlət başçımızın bildirdiyi kimi, Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur: "Mənim 2014-cü ildə Hanoya səfərim zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüş oldu, onlar ölkəmiz və burada keçirdikləri illərlə bağlı səmimi sözlər ifadə etdilər. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edildi".

Mədəni-humanitar əməkdaşlıqdan danışarkən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vyetnamla bağlı işlərini vurğulamaq lazımdır. Vyetnamın Hazianq əyalətində ucqar yaşayış məntəqələrindən olan Ziap Çunq qəsəbəsində ibtidai məktəb binasının inşası Heydər Əliyev Fondunun xeyirxahlıq missiyasının göstəricisi olmaqla yanaşı, Azərbaycanın Vyetnam ilə münasibətlərə verdiyi əhəmiyyətin təzahürüdür. Bu günlərdə Fondun vitse-prezidenti Leyla Əliyeva Vyetnamda səfərdə ikən Heydər Əliyev Fondunun xeyirxah missiyasının daha bir təzahürü olaraq görmə qabiliyyəti məhdud şəxslər üçün orta məktəbə, Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi təqdim edilib. Leyla Əliyevanın səfəri zamanı Vyetnam Sosialist Respublikasının vitse-prezidenti Vo Ti An Suan və Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşlərində xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət səviyyəsində əməkdaşlığın vacibliyi vurğulanıb.

### "SƏFƏR SİYASİ VƏ İDEOLOJİ ZƏMİNDƏ QARŞILIQLI FƏALİYYƏTİN YÜKSƏK SƏVİYYƏSİNİN ƏLAVƏ TƏSDİQİ OLACAQ"

"İkitərəfli münasibətlərin yeni səviyyəyə qaldırılması kontekstində Vyetnam Liderinin Azərbaycana qarşıdakı səfəri nə kimi əhəmiyyətə malikdir?" sualına gəlincə isə Azərbaycan Prezidenti bildirib ki, ikitərəfli münasibətlərin dərinləşdirilməsi səylərini əks etdirən və qarşılıqlı fəaliyyətdə yeni istiqamətlər açan bu hadisə böyük siyasi əhəmiyyətə malikdir. Bu kontekstdə səfəri haqlı olaraq Azərbaycan-Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar: "Səfər proqramına ikitərəfli gündəliyin əsas aspektlərini əhatə edən məsələlərin geniş dairəsi daxildir. Bu, aktual mövzulara dair hərtərəfli fikir mübadiləsi aparmağa, yanaşmaları razılaşdırmağa və gələcəkdə qarşılıqlı fəaliyyətin perspektiv istiqamətlərini müəyyənləşdirməyə imkan verəcək. Siyasi dialoqa, iqtisadi-ticari əlaqələrə, həmçinin humanitar və mədəni mübadiləyə xüsusi diqqət yetiriləcək".

Dövlət başçımız onu da qeyd edib ki, partiyalararası dialoqun inkişafına ayrıca əhəmiyyət verilir: "Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir. Qarşıdakı səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsinin əlavə təsdiqi olacaq.

İnanıram ki, cənab Lamın səfəri daha fəal əməkdaşlığa mühüm təkan olacaq, Azərbaycanla Vyetnam arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət ruhunda inkişafı üçün yeni üfüqlər açacaq".

### "ÖLKƏLƏRİMİZ ƏN MÜXTƏLİF SAHƏLƏRDƏ ƏMƏKDAŞLIQ POTENSİALINI BUNDAN SONRA DA İNKİŞAF ETDİRMƏK ÜÇÜN BÜTÜN İMKANLARA MALİKDİR"

Vyetnam ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişafı üçün geniş perspektivlər və potensial mövcuddur.

"Ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir", - deyən Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmin olduğunu diqqətə çəkib, " Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humanitar missiyalara bağlı proqramların və birgə təşəbbüslərin inkişafı - bütün bunlar ölkələrimiz üçün qarşılıqlı maraq doğuran istiqamətlərdir. Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq."

Göründüyü kimi, bu gün Azərbaycanla Vyetnam arasında münasibətlər bütün əsas sahələr üzrə uğurla inkişaf edir. Mövcud münasibətlər Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycan Respublikasına dövlət səfərindən sonra daha da genişlənəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# "Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə:
# Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru"

***Mayın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru" mövzusunda tədbir keçirilib.***

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.




Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov "Konstitusiya və Suverenlik İli" çərçivəsində xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə keçirilən tədbirin iştirakçılarını salamlayıb. Tahir Budaqov qeyd edib ki, Azərbaycan xalqı üçün bütün taleyüklü məsələlərin həlli məhz güclü lider amili, onun milli-mənəvi dəyərlərə və zamanın tələblərinə əsaslanan titanik fəaliyyəti, qətiyyətli və uzaqgörən siyasəti sayəsində mümkün olmuşdur: "Bu gün qürurla ifadə edirik ki, qüdrətli və qalib Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları və tükənməz dövlətçilik irsi ilə bağlıdır. Fəaliyyətinin bütün dövrlərində Azərbaycan naminə böyük fədakarlıq göstərərək misilsiz xidmətlərə imza atmış Heydər Əliyev əbədiyaşarlıq zirvəsinə ucalmış, onun adı xalqımızın xilaskarı, müasir müstəqil dövlətimizin qurucusu kimi tariximizə həkk olunmuş, siyasi irsi milli-mənəvi sərvətimiz kimi bu gün də Azərbaycanın tərəqqisinə xidmət edir və hələ uzun illər bundan sonra da onun ideyaları milli təkamül yolumuzun əsasını təşkil edəcəkdir".



YAP Sədrinin müavini bildirib ki, Ulu Öndər Heydər Əliyev bir-birindən siyasi-ideoloji və sosial-iqtisadi cəhətdən tamamilə fərqli olan iki tarixi mərhələdə - istər SSRİ dönəmi, istərsə də müstəqillik dövründə ölkəmizə rəhbərliyi zamanı milli inkişafa xidmət edən ardıcıl və məqsədyönlü siyasət həyata keçirməklə xalqımız üçün taleyüklü uğurlara imza atmışdır. Onun sözlərinə görə, 1969-cu il 14 iyul tarixində Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər respublikamızın sosial-iqtisadi yüksəlişini təmin etmiş, gələcək müstəqilliyinin əsaslarını formalaşdırmışdır: "O dönəmdə Azərbaycan dilinin respublika konstitusiyasında dövlət dili kimi təsbit edilməsi isə mürəkkəb tarixi mərhələdə milli şüurun güclənməsi, xalqın öz mənəvi sərvətlərini, tarixi dəyərlərini qoruyaraq yaşatması baxımından böyük əhəmiyyətə malik olmuşdur. Müdrik dövlət xadimi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi mərhələdə də ölkəmizin mənafelərini qətiyyətlə qoruyaraq xalqın rifahı və firavanlığı naminə məqsədyönlü işlər görmüş, dünya siyasətinə bir azərbaycanlı kimi öz bənzərsiz imzasını atmışdır. Ulu Öndər Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri kimi də öz tarixi missiyasını davam etdirmiş, blokada vəziyyətindəki muxtar respublikanı ağır sosial-iqtisadi şəraitdən və tənəzzüldən qurtararaq onun dirçəlişinə nail olmuş, SSRİ-nin saxlanılması haqqında referendumda iştirakdan imtina etməklə faktiki olaraq müstəqilliyin təməllərini yaratmış, bu gün bütün ölkə ərazisində əzəmətlə dalğalanan üçrəngli dövlət bayrağını ilk dəfə ucaltmışdır".



YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, Heydər Əliyev müstəqillik dövründə xilaskarlıq və quruculuq missiyasını həyata keçirməklə ölkəmizi nəinki tənəzzüldən, hətta dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtararaq inkişaf yoluna çıxarmış, Ümummilli Lider zirvəsinə yüksəlmişdir: "1992-ci il noyabrın 21-də Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması, xalqın öz Liderinin arxasınca gedərək vahid amal uğrunda - milli məqsədlər naminə səfərbər olması həlledici siyasi-ideoloji faktor kimi ölkəmizin gələcəyini müəyyən etmişdir. Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya olarkən - 1993-cü ilin iyun hadisələri zamanı xalqımız Ulu Öndərə ölkəmizin qurtuluşu üçün respublikaya rəhbərlik etməsi barədə çağırış etmiş, Ümummilli Lider isə həyatını belə riskə ataraq növbəti dəfə tarixi-siyasi məsuliyyəti üzərinə götürmüş və Bakıya qayıdaraq iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilmişdi. Həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Bu, Heydər Əliyevin böyük siyasətə Qayıdışı və Zəfər yolunun başlanğıcı idi".

Tahir Budaqov vurğulayıb ki, 1993-cü il oktyabrın 3-də xalqın mütləq dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev milli maraqlardan irəli gələn vəzifələri ardıcıl həyata keçirməklə Azərbaycanın real müstəqilliyinə nail oldu: "Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin qarşısında duran ali məqsədlərə çatmaq üçün milli qanunvericiliyimizin əsaslarını müəyyən etdi. Məqsədyönlü siyasət nəticəsində milli birliyin, sabitlik və təhlükəsizliyin təmini, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi və digər mühüm addımlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini və beynəlxalq münasibətlər sistemində rolunun artmasını təmin etdi. Bir sözlə, Heydər Əliyevin respublikamıza ikinci rəhbərlik dönəmi - 1993-2003-cü illər Azərbaycanın sabitlik və tərəqqi yoluna qədəm qoymasını, böyük Zəfərin əldə edilməsi üçün möhkəm təməllərin yaradılmasını şərtləndirmişdir".



YAP Sədrinin müavini bildirib ki, Ümummilli Liderimiz 2003-cü ildə xalqa müraciət edərək dövlətçiliyimizin qorunub inkişaf etdirilməsi naminə Azərbaycanın gələcəyinə dair aydın baxışını ortaya qoymuşdu: "Xalqımız Heydər Əliyevin müdriklik və uzaqgörənliyinə sonsuz inamı bir daha nümayiş etdirərək cənab İlham Əliyevə qətiyyətli dəstək və yüksək etimad göstərməklə siyasi varisliyi təmin etdi və bununla da ölkəmizin inkişafında yeni mərhələnin əsası qoyuldu. Cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan öz iqtisadi, siyasi, hərbi gücü və xalqımızın əzmkar mövqeyi sayəsində möhtəşəm uğurlar qazandı.



***Ardı Səh. 5***

Əvvəli Səh. 4

# "Milli Konstitusiyadan tam Suverenlik zirvəsinə: Heydər Əliyev ideyaları ilə yeni qələbələrə doğru"

Ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərpası isə Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, diplomatik məharətinin real nəticəsidir. Dövlət başçısının Sərəncamı ilə elan olunan "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən tədbirlər Azərbaycanın bu möhtəşəm Zəfər yoluna - tam suverenlik zirvəsinə yüksəlməsinə hərtərəfli nəzər salınması baxımından böyük əhəmiyyət daşıyır".

"Əminliklə söyləyə bilərik ki, qarşıdakı dönəm də Azərbaycanın davamlı uğurları və milli gücünün daha da artması ilə əlamətdar olacaqdır. Şübhə yoxdur ki, Heydər Əliyev ideyalarına sadiq qalaraq məqsədyönlü siyasət həyata keçirən, xalqın inam və etimadını doğruldan və ata vəsiyyətini şərəflə yerinə yetirən, sözünün imzası qədər dəyərli olduğunu hər zaman təsdiq edən qətiyyətli Lider - Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımıza yeni zəfərlər bəxş edəcəkdir. Müasir müstəqil Azərbaycan bu gün anadan olmasının 102-ci ildönümü ərəfəsində əziz xatirəsini dərin hörmətlə yad etdiyimiz Ulu Öndərimizin zəngin milli-mənəvi dəyərlərə və çoxəsrlik dövlətçilik ənənələrinə malik xalqımıza ən böyük mirasıdır. Heydər Əliyev irsinə sonsuz ehtiram və sədaqət nümayiş etdirməklə möhtərəm Prezidentimiz, partiyamızın Sədri cənab İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycan naminə çalışmaq hər birimizin ümdə vəzifəsi - həm mənəvi, həm də siyasi borcudur. Bu şərəfli yolda hamınıza inam və əzmlə addımlamağı arzulayıram. Yaşasın Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanəti olan müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Respublikasının Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevə!", - deyə Tahir Budaqov vurğulayıb.



Çıxış edən YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov Ulu Öndər Heydər Əliyevin bütün həyatını Azərbaycan xalqına və dövlətinə həsr etdiyini bildirib. Onun sözlərinə görə, 1969-cu ildə Ulu Öndərin Azərbaycanda birinci dəfə siyasi hakimiyyətə gəlməsi respublikamızın tarixində dönüş nöqtəsi oldu: "Azərbaycanda Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti dövründə həyatın bütün sahələrində ölçüyəgəlməz uğurlar qazanılıb, mühüm iqtisadi potensial, maddi-texniki baza yaradılıb, əhalinin rifahı xeyli yüksəlib, elm, təhsil, mədəniyyət inkişaf prosesi keçib, milli şüurun oyanışı və dirçəldilməsi istiqamətində çox əhəmiyyətli işlər görülüb. Azərbaycan dilinin dövlət dili kimi Konstitusiya səviyyəsində rəsmi status qazanması da dahi rəhbərin siyasi iradəsi hesabına gerçəkləşib. 1969-1982-ci illərdə Azərbaycanda sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti sahəsində fundamental irəliləyiş baş verdi, Azərbaycan SSRİ-nin inkişaf etmiş respublikalarından birinə çevrildi".

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, Ulu Öndər Heydər Əliyev sovetlər birliyi dövründə Azərbaycanı qabaqcıl respublikalar sırasına çıxardığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə də müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu. Onun sözlərinə görə, Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizdə sabitliyin təmin olunması, təbii sərvətlərimizdən səmərəli istifadə məqsədilə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanı qısa müddətdə böyük investisiyalar məkanına çevirdi: "Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi nüfuz qazandı. İqtisadi tərəqqi bütün sahələrdə uğurlu addımlara yol açdı. Ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Bir sözlə, 1993-2003-cü illərdə Azərbaycanın bu günü üçün möhkəm təməl yarandı".





"Ulu Öndərimizin siyasi varisi - cənab İlham Əliyev onun ən böyük arzusunu yerinə yetirdi. Azərbaycan əsgəri xalqın zəfər salnaməsini yazdı. Torpaqlarımızın işğaldan azad edilməsində illərin zəhməti var. Azərbaycan dövləti, cəmiyyətimiz, ordumuz bu gücə, qüdrətə dövlət rəhbərimizin fədakar əməyi, dərin zəkası, qətiyyətli addımları sayəsində nail olub", - deyə YAP Veteranlar Şurasının üzvü əlavə edib.

M.Mərdanov söyləyib ki, bu gün Azərbaycanın əldə etdiyi bütün uğurların təməlində məhz Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətləri dayanır: "Heç vaxt unutmamalıyıq ki, bu nailiyyətlər böyük şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Çünki onun vaxtilə dediyi "Azərbaycan dünyaya günəş kimi doğacaq" sözləri bu gün gerçəkliyə çevrilib. Azərbaycan bu gün tam müstəqil, güclü dövlətdir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz ərazi bütövlüyünü tam bərpa edib. Hazırda Azərbaycan inkişafının yeni mərhələsini yaşayır. İnanırıq ki, ərazi bütövlüyü və suverenliyinini tam bərpa etmiş Azərbaycan bundan sonra da böyük nailiyyətlər qazanacaq".

Vətən müharibəsi iştirakçısı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri, ərazi partiya təşkilatının sədri Amil Sefiyev çıxışında bildirib ki, minilliklərin sınağından çıxmış təcrübə göstərir ki, qeyri-adi, fenomenal keyfiyyətlərə, yüksək dövlətçilik və idarəçilik təfəkkürünə malik lideri olmayan xalqlar nəinki müstəqil dövlət yarada bilməmiş, hətta dünya xəritəsindən tamamilə silinmək təhlükəsi ilə də üzləşmişlər. Onun sözlərinə görə, Azərbaycanın müstəqil dövlətçilik tarixinin təhlili əyani şəkildə göstərir ki, dövlət qurmaq kimi çətin, mürəkkəb və şərəfli bir missiyanın öhdəsindən mətin iradəli, geniş və qlobal dünyagörüşlü, ümumxalq dəstəyinə malik Ümummilli Lider Heydər Əliyev gələ bilərdi: "Heydər Əliyevin dövlət rəhbəri və lider kimi tarixi fəaliyyəti nəsillər üçün böyük bir məktəbdir. Onun dərin yaddaşı, iti məntiqi, mürəkkəb siyasi situasiyalarda qəti qərar vermək qabiliyyəti, uzaqgörənliyi, intellektual gücü, analitik baxışı, cəmiyyətin siyasi, iqtisadi və mənəvi tarazlığını saxlamaq səriştəsi hələ uzun müddət öyrəniləcək və bu barədə çox tədqiqatlar aparılacaq. Onun həyatı, tarixi fəaliyyəti və təcrübələri xalqımızın yalnız bu günü deyil, işıqlı sabahı üçün də perspektivlər açır və millətimizin gələcəyinə böyük nikbinlik yaradır".

A.Sefiyev qeyd edib ki, Azərbaycan xalqı Heydər Əliyev ideyalarından, onun böyük dövlətçilik məktəbindən ölkəmizin inkişafı və rifahı naminə daim faydalanacaq: "Heydər Əliyev siyasi xətti müstəqil Azərbaycanın dününini və bu gününü yaşadan, gələcək inkişafına etibarlı zəmin yaradan dövlətçilik yoludur. Dahi şəxsiyyətin siyasi irsi Azərbaycan xalqının milli sərvətidir. Sevindirici haldır ki, Vətənə sevgi, xalqa və dövlətə xidmət Ulu Öndərin sədrliyi ilə yaranmış, hazırda isə onun siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında inkişaf edən və ölkədə ən geniş sosial bazaya malik olan siyasi partiya - Yeni Azərbaycan Partiyasının fəaliyyətində xüsusi yer tutur".



A.Sefiyev vurğulayıb ki, Vətən müharibəsi Azərbaycan xalqının çoxəsrlik dövlətçilik, o cümlədən çağdaş hərb tarixinin ən əzəmətli hadisəsidir: "Xalqımızın şərəf və ləyaqət tarixinin qızıl hərflərlə yazılmış səhifələri olan 44 günlük Vətən müharibəsi və qazanılan möhtəşəm Zəfər gələcək nəsillər üçün də əbədi qürur mənbəyi olacaq. İndi dünya Azərbaycan Ordusunun döyüş bacarığından, ruh yüksəkliyindən danışır. Ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə Yeni Azərbaycan Partiyasının üzvləri həm döyüş meydanında, həm də arxa cəbhədə, informasiya mübarizəsində ən öndə gedənlərdən oldular. Fəxr edirəm ki, Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti kimi mən də 44 günlük Vətən müharibəsinin iştirakçısı olmuşam, cəbhənin bir çox istiqamətlərində ağır döyüş əməliyyatlarında iştirak etmişəm".



A.Sefiyev deyib ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyev tərəfindən hazırda uğurla davam etdirilən siyasət hələ uzun illər müstəqil dövlətimizin daha da güclənməsinə, iqtisadi qüdrətinin artmasına, xalqımızın rifahının daha da yüksəlməsinə xidmət edəcək.

Çıxış edən YAP Gənclər Birliyinin sədr müavini Sevinc Qasımova bildirib ki, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti yalnız Azərbaycanın dövlətçilik tarixində deyil, həm də milli irsimizdə, cəmiyyətimizin inkişafında dərin izlər buraxıb. Onun sözlərinə görə, Heydər Əliyevin uzaqgörənliyi sayəsində Azərbaycan yalnız regionun ən güclü dövləti olaraq tanınmaqla qalmayıb, həm də dünya miqyasında öz yerini möhkəmləndirib: "Heydər Əliyevin siyasi irsi yalnız ölkəmizin inkişafına deyil, həm də Azərbaycan xalqının özünəinamının artmasına səbəb olub. Onun rəhbərliyi dövründə gənclərin inkişafı üçün atılan addımlar bu gün də öz bəhrəsini verməkdədir. Bu gün Azərbaycan gəncləri Heydər Əliyev ideyalarını, vətənpərvərlik, müstəqillik prinsiplərini rəhbər tuturlar. Vətən müharibəsində şəhid olan gənclərimiz öz qanları ilə Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə aparıb, bu yolda canlarını fəda ediblər. Bu gün həmin gənclərin xatirəsi bizim üçün yalnız keçmişin deyil, gələcəyin də işığıdır".



S.Qasımova qeyd edib ki, Azərbaycanın möhtəşəm Zəfərinin təməlində Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsi, Müzəffər Ali Baş Komandan İlham Əliyevin polad iradəsi, qətiyyəti, dəmir yumruğu, xalqımızın sarsılmaz birliyi və rəşadətli ordumuzun misilsiz qəhrəmanlığı dayanır: "İndi Azərbaycan bayrağı Cıdır düzünün səmasında, Şuşa qalasında, Laçın qayalıqlarında, Zəngilanın meşələrində, Kəlbəcərin uca dağ zirvələrində, Xankəndi Universitetində əzəmətlə, qürurla, şərəflə dalğalanır".

"Fəxr hissi ilə vurğulamalıyam ki, işğaldan azad olunmuş torpaqlarda yeni, ən müasir standartlara cavab verən şəhər və kəndlərin qurulmasında gənclər də fəal iştirak edirlər. Biz gənclər hər zaman Ulu Öndərin əziz xatirəsini dərin hörmətlə anırıq. Onun xatirəsi sadəcə bizim deyil, bizdən sonrakı gənc nəsillərin də yaddaşında əsrlər boyunca yaşayacaq. Ulu Öndər Heydər Əliyevin adı təkcə Azərbaycan tarixinə deyil, dünya tarixinə də əbədi həkk olunub", - deyə YAP Gənclər Birliyinin sədr müavini vurğulayıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Amerikalıdan dost olarmı?

## ABŞ Konqresinin Nümayəndələr Palatası Gürcüstana qarşı sanksiya qanun layihəsini təsdiqləyib




Gürcüstan-Amerika münasibətləri yaxın gələcəkdə kəskin şəkildə pisləşə bilər. Nümayəndələr Palatasının bazar ertəsi, mayın 5-də qəbul etdiyi qanun layihəsini ABŞ Senatı təsdiq edərsə və prezident Donald Tramp imzalarsa, bu baş verəcək. Meqobari Aktı adlanan qanun respublikada hakim Gürcü Arzusu (GA) partiyasının liderlərinə qarşı sanksiyaları nəzərdə tutur. Sənəd Vaşinqtonun Tbilisinin xarici və daxili siyasətindən, xüsusilə insan haqlarının pozulması, habelə Rusiya, Çin və İranla əməkdaşlıq baxımından narazılığını nümayiş etdirir. Buna baxmayaraq, Gürcüstan hakimiyyəti hələ də ABŞ-la münasibətlərin "yenidən qurulmasına" ümid edir. Qanun layihəsini bazar ertəsi ABŞ Konqresinin aşağı palatasının 433 üzvündən 349-u, o cümlədən 168 respublikaçı və 181 demokrat dəstəkləyib. Konqresin 42 üzvü tədbirin əleyhinə səs verib, eyni sayda üzv isə ya səs vermədi, ya da bitərəf qalıb. Sənədin rəsmi adı "Çin Kommunist Partiyasının, İran rejiminin və Rusiya Federasiyasının Gürcüstanda təsirinə qarşı mübarizə haqqında"dır. Bununla belə, buna daha çox Meqobari Aktı deyilir. Bu həm gürcü dilindəki "meqobari" (dost) sözünə istinad, həm də "Gürcüstanın Hesabatlılığın, Dayanıqlığın və Müstəqilliyin yaradılması üçün Seçimlərinin Səfərbərləşdirilməsi və Artırılması" üçün qısaldılmış addır. Sənədin əsas müddəası "Gürcü Arzusu"nun liderlərinə, nazirlərinə, digər gürcü rəsmilərinə və onların ailə üzvlərinə qarşı sərt sanksiyaların tətbiqinin mümkünlüyüdür.

Tədbirlərə Birləşmiş Ştatlarda əmlakın müsadirəsi və əgər varsa, hesabların dondurulması, həmçinin ABŞ-a girişin qadağan edilməsi daxildir. Qanunun qəbulunun əsas təşəbbüskarı GA-nı daim "siyasi rəqiblərə qarşı repressiyalara" görə tənqid edən respublikaçı konqresmen Co Vilson hesab edilir. "Gürcüstanın azadlıqsevər xalqı Amerika bayraqları və Prezident Trampın portretləri ilə küçələrə çıxdı" deyən konqresmen Uilson Nümayəndələr Palatasındakı debatlar zamanı Tbilisidə və Gürcüstanın digər şəhərlərində artıq altı aya yaxındır ki, növbədənkənar parlament seçkilərinin keçirilməsi və Avropa İttifaqına üzvlüklə bağlı danışıqların bərpası tələbi ilə davam edən etiraz aksiyalarına toxunaraq bildirib.

Müxalifət etirazları tez-tez polislə toqquşmalara çevrilib, nəticədə hər iki tərəfdən yüzlərlə insan yaralanıb, bir neçə min müxalifətçi cərimələnib və ya qısamüddətli inzibati həbs edilib və 50-dən çox fəal "qrup zorakılığı"na görə cinayət işlərində hökm gözləyirdi. Onları uzunmüddətli həbs gözləyir. Co Vilsonun sözlərinə görə, Gürcüstanın hakim partiyası və İrakli Kobaxidze hökuməti "Gürcüstanı ABŞ-ın düşmənlərinə satmağa" çalışan repressiv, amerikanofob mafiya qrupuna çevriliblər. Xüsusilə, konqresmenin qeyd etdiyi kimi, GA Çinə Anaklia şəhərində dərin sulu Qara dəniz limanı tikmək hüququ verib, "Tehrandakı rejimə tabedir" və həm də Moskvanı razı salmaq üçün hərəkət edir.

ABŞ Administrasiyasının gələcək qərarlarında İvanişvilinin ailə üzvlərinin qeyd edilib-edilməyəcəyi hələlik bəlli deyil: Meqobari qanunu əvvəlcə yuxarı palata tərəfindən təsdiqlənməlidir, bundan sonra imzalanmaq üçün prezident Trampa gedəcək. Analitik-ekspert David Avalişvilinin qeyd etdiyi kimi, aktda konkret məqamlar azdır və hər şey Ağ Evin "simvolik deyil, həqiqətən də sərt sanksiyaları" ayrı-ayrı şəxslərə deyil, Qafqaz və onun iqtisadi sisteminə və onun iqtisadi sisteminə münasibətdə məqsədəuyğun hesab edib-etməməsindən asılı olacaq. Eyni zamanda, Ağ Ev bu yaxınlarda Tbilisiyə münasibətlərin yaxşılaşmasının mümkünlüyü ilə bağlı bəzi siqnallar göndərib.

### Tbilisini ruhlandıran nədir?

Baş nazir Kobaxidze və parlamentin spikeri Şalva Papuaşvili Donald Trampın seçilməsindən sonra ABŞ-ın yeni administrasiyasının "Gürcüstanı Rusiyaya qarşı müharibəyə sürükləməyə çalışan və cəhd edən" "Amerika Dərin Dövlətini məğlub edə biləcəyinə" ümid etdiklərini bildiriblər. Bu arada, Meqobari Aktı Nümayəndələr Palatası tərəfindən təsdiq edildikdən sonra GA-nın liderlərindən biri Levan Maxaşvili ABŞ-da "Dərin Dövlətin hər şeyə qüdrətinin növbəti nümayişi"ndən təəssüfləndiyini bildirərək sənədi "düşmənçilik aktı" adlandırıb. Bununla belə, müxalifət qanun layihəsini məmnuniyyətlə qarşıladı: bütün dörd əsas koalisiyanın liderləri Gürcüstanı "Avroatlantika sivilizasiyasından" qoparan "Putinyönlü oyuncaq hökumət"ə qarşı "Amerikanın gürcü xalqının ədalətli mübarizəsinə dəstəyi" barədə bəyanatlar veriblər.

"Dostluq aktı" Gürcüstan hakimiyyətini məyus edir

Sənəd yüksək vəzifəli gürcü məmurları üçün sanksiyalar və viza məhdudiyyətlərinin tətbiqini nəzərdə tutur, həmçinin yardım proqramları da daxil olmaqla, Vaşinqton və Tbilisi arasında "münasibətlərin tam yenidən qiymətləndirilməsinə" yol açır. Qanun layihəsində qeyd edildiyi kimi, ABŞ respublikanın Avroatlantik inteqrasiyasını dəstəkləməkdə davam edəcək və gürcüləri bu yoldan döndərməyə çalışan "Gürcü arzusu"nun üzvlərinə və onların əlaltılarına qarşı mübarizə aparacaq. Bundan əlavə, akt yerli hakimiyyət orqanlarına qarşı çıxan Gürcüstan vətəndaş cəmiyyətinə dəstəyi əks etdirir.

Bu arada gürcü müxalifəti Konqresdə səsvermənin ilk nəticələrini qələbə kimi qiymətləndirib. Belə ki, "Lelo" partiyasının lideri Mamuka Xazaradze "dostluq aktı"nı 2012-ci ildən bəri hakim partiyanın "Rus arzusu"nun bütün cinayətlərinə gürcü xalqının cavabı adlandırıb: "Amerika İvanişvilini yox, gürcü xalqını dəstəklədi. Demək olar ki, hər bir məsələdə tərəflərin ciddi fikir ayrılığının olduğu Amerikada bu cür razılığa yalnız milli əhəmiyyətli məsələlərdə nail olmaq olar. Bu gün gürcü xalqının azadlıq mübarizəsi belə bir məsələyə çevrilib".

Gürcüstan hakimiyyəti isə əksinə, sevinməyə əsas görmür. Tbilisi meri və "Gürcü arzusu"nun baş katibi Kaxa Kaladze Nümayəndələr Palatasının qərarını belə izah edib: ""Dərin dövlət" hələ məğlub olmayıb, onun təkcə Gürcüstanda deyil, dərin kökləri var". Öz növbəsində, Gürcüstan parlamentinin Avropaya inteqrasiya komitəsinin sədri Levan Maxaşvili ümid etdiyini bildirib ki, ABŞ prezidenti Donald Tramp qalmaqallı aktı imzalamayacaq və bununla da "dərin dövlət" üzərində qələbəni təmin edəcək. Geocase mərkəzinin rəhbəri Viktor Kipiani "Gürcü arzusu"nun ağrılı reaksiyasını onun Tramp administrasiyasına həddən artıq arxalanması ilə izah edib. "Onun kampaniyası qismən Trampın seçildikdən sonra onun dəstəyi və ya Gürcüstanın işlərinə qarışmaması üzərində qurulub. Hər ikisi seçicilərə "Gürcü Arzusu"nun ABŞ-la razılığa gəlmək qabiliyyətinin sübutu kimi təqdim edilib. Lakin "dostluq aktının" qəbul edilməsi heç nəyin alınmadığını sübut edir", - Kipiani deyib. Eyni zamanda o qeyd edib ki, aktın özü o demək deyil ki, "Gürcü arzusu"nun bütün üzvlərinə qarşı dərhal sanksiyalar tətbiq olunacaq. Lakin ABŞ-da bunun tez bir zamanda edilə biləcəyi bir mexanizm olacaq.

Politoloq Nika Çitadze qeyd edib ki, "Gürcü arzusu" MEGOBARI aktını gözardı edə bilməz, çünki məcburi olmayan Avropa qətnamələrindən fərqli olaraq bu, məcburidir. "Rəsmi Tbilisi hətta Brüsseli ələ salmağa belə icazə verdi ki, onsuz da heç nə olmayacaq. ABŞ-da isə hər şey başqa cürdür. "Amerika hakimiyyəti təkcə "Gürcü Arzusu" üzvlərinin deyil, həm də onların qohumlarının əmlak və maliyyə əməliyyatlarını bloklamaq hüququ əldə etmək üzrədir", - Çitadze deyib. Lakin ekspert belə bir tədbirin "Gürcü arzusu"nun öz siyasətinə yenidən baxmasına səbəb ola biləcəyinə inanmır. Var-dövlətinin bir hissəsini itirmək başqa şeydir, birinə bütün bunları verən gücü itirmək tamam başqadır.

**V.VƏLİYEV**



MƏTANƏT

## İmkan vermədik, yoxsa danışardı RADİO

7 may dünya elm və texnikası tarixinə radionun ad günü kimi daxil olub. 1895-ci ilin məhz bu günü rus fiziki Aleksandr Stepanoviç Popov radioəlaqənin ilk seansının həyata keçirilməsilə bağlı məruzə ilə çıxış edərək dünyada ilk radioqəbuledicini təqdim etmişdi. Və nə gözəl də etmişdi. Bu gündən dünənki-radiolu günlərimzə nəzər salarkən, hər zaman yalnız belə düşünmək olar. Bu gün yadıma illər öncə hər birimizin evində divarlardan asılan, dolabların başında, masaların üzərində yeri olan radiolar düşdü. Gecə-gündüz oradaca bizi xəbərlərlə, əyləncəli verilişlərlə, konsert proqramları ilə təmin edən, uşaqlığımızın nağılı olan radiolar. Bütün günü açıq olurdu. Ölkənin hər yerindən, hətta xarici xəbərlər bülleteni ilə dünyadan da xəbərdar olurduq. Gecə bir az səsini azaldırdıq. Oradaca nənə-babalarımız demişkən, "danışırdı".

Bu gün isə bütün ölkəni gəzsək, bəlkə də bir evdə belə radio tapa bilmərik. Çünki onun yerini sosial şəbəkələr alıb. O sosial şəbəkələr ki, bütün günü oradayıq. Bizi real həyatımızdan virtual həyata şirnikləndirən sosial aləm: radiomuz da, televizorumuz da, söhbət, görüş yerimiz də oradadır. Məktublaşmağımız, hal-xoş etməyimiz də oradadır.

Bu gün radio yalnız kimin maşını varsa, oradadır. Maşında digər vasitələrdən istifadə edə bilmədiyimiz üçün məcburən radionu açmalı oluruq. Uzaq səfərlər zamanı, şəhərdə tıxacda qalan zaman dadımıza radio çatır. Vaxtımızı doldurmaq, öldürmək üçün bir musiqi dinləyirik, istər-istəməz ölkə xəbərlərindən məlumatlı oluruq, bəzi verilişləri dinləmək məcburiyyətində qalırıq.

Deməli, radionu yalnız ölkədə sürücülər dinləyir. Bir də maşında olanlar və ya taksi xidmətindən istifadə edənlər. Onlar da ki, təbii ki, bir saatadək və ya ondan da xeyli az vaxt ərzində. Radionu verdik sosial şəbəkələrə qurban. İndi evlərimizdə, işdə, küçədə, bir sözlə, hər yerdə yanımızda telefon var. Biz istədiyimiz məlumatı da ondan alırıq, radio kimi də ondan istifadə edirik. Lakin əvvəlki radiolardan aldığımız "doğmalığı" müasir texnologiyadan, süni intellektdən ala bilirikmi? Əlbəttə, yox.

Lakin nə etməli ki, qısa zaman kəsiyində qapı-pəncərələrimizi internetin üzünə elə görməmişliklə açdıq, onu yuxarı başa elə dəvət etdik ki, oldu ev sahibi. Artıq gecdir onu evdən çıxara bilməyimiz. İnternet olub həyatımızın bir parçası. Xeyiri xeyrimizdir. Xeyrindən çox zərərləri isə bizdən qopara-qopara gedir. Haradək, bax, bu suala hələ ki, cavab tapa bilən çox az insan var.

Danışmayan, artıq susan radioları xatırlayan mənim kimi minlərlə insan var bu gün. O radiolardan mənəvi zənginlik alan insanlar. Vaxt gələcək o insanlar da radiolar kimi torpağa qovuşacaq. Ondan sonra isə bizim övladlarımız və onların övladları tamamilə bu gün sürətlə həyatımıza daxil edilən süni intellektlə baş-başa qalacaq: onların radiosu da, televiziyası da, mətbuatı da o olacaq. Təəssüf edək, yoxsa zamanın tələbidir deyib, baş əyək, bax, bu seçim qarşısında hələlik bir söz demək çətindir... Lakin onu düşünmək o qədər çətin deyil ki, imkan versəydik, danışardı Radio. Amma vermədik.

# Geyim, moda bizim üçün nədir?

***Moda - bu anlayış müxtəlif zamanlarda müxtəlif cəmiyyətlərdə meydana gələn geyim stillərini özündə ehtiva edir. Ümumi anlayışlar: incəsənət, memarlıq, ədəbiyyat və yemək kimi bir çox mövzudan ibarət ola bilir. Bir müddət əksər insanlar tərəfindən bəyənilən bir şey də bu cür adlandırıla bilər. Moda sadəcə geyim deyil. Makiyajın da modası var, çantaların da.. Musiqi, ədəbiyyat, kino, teatr, alış-veriş kimi bu cür fəaliyyət növləri də bu anlayışa daxildir.***

Modanın tarixçəsi minlərlə il öncəyə qədər gedib çıxır. Çinlilərin ayaqlarını kiçiltmək üçün əziyyətə qatlaşmaları, Babilli və Assuriyalı kişilərin kobud və saçaqlı geyimlər geyinmələri belə öz çağlarına görə modanın əlamətləridir.

19 və 20-ci yüzillərdə isə bu işlərlə məşğul olmaq xüsusi ixtisas sahəsi halına gələrək "Moda evi" adı altında ortaya çıxdı. Moda xalqların keçmişinə aid adət-ənənə və sənət yönündə meydana gətirdikləri yeniliklərin yanında zövqləri, namus və əxlaq anlayışları, iqtisadi vəziyyətləri haqqında da gələcəyə məlumat verməkdədir. İyirminci yüzilin yarılarından sonra moda bir çox mövzularda insanlara öncülük edən, hətta onları istiqamətləndirib çeşidli davranışlara sövq edən ən vacib faktorlardan oldu. Bu baxımdan geyim və ya bəzəkdə görüldüyü kimi düşüncə sahəsində insanların davranışlarında bu kimi axınlar təsirli olmağa başladı.

Geyim, moda bizim üçün nədir? Bu ayın modası necə olacaq? SƏS TV mövzu ilə bağlı modelyer, sosioloq və şəhər sakinlərinin fikirlərini öyrənib.





**Şəhər sakini Cavid Əliyev:** "Geyim insanın xarakterini göstərir. Çünki insanın səliqəli geyinməsi, özünə qiymət verməsi, özünə baxış tərzi, məncə, onun geyimindən bilirsən ki, o insan necə biridir. Müəllim var ki, on ilin geyimini elə səliqəli geyinir ki, sanki dünən alıb. Elə adam da var ki, bir köynəyə 100 manat pul verir, amma baxırsan ki, bir aydır əynindən çıxmır. İlk iş görüşməsində də geyimin önəmi çoxdur. Orta geyinmək lazımdır. Sport geyinib getsən, əlbəttə ki, səni qəbul etməyəcəklər. Klassik geyimlə getmək lazımdır".



**Şəhər sakini Lalə Şirin:** "Geyim elə bir şeydir ki, insanı təqdim edir. Tutduğu vəzifədən, işlədiyi yerdən asılı olaraq insanın geyimi onu bildirməlidir. Müəllim rəngbərəng geyinsə, yaxşı çıxmır, müəllimin,həkimin öz geyimi olmalıdır. Belə düşünürəm ki, geyim bəzən insanın xarakterini də göstərə bilir. Bəlkə, gənclərimiz bunu hələ bilmirlər. Ancaq o barədə məlumat olsa, çox yaxşı olar. Bilsinlər ki, təkmilləşdirsinlər. Hansı sənətin arxasınca gedirlərsə, ona uyğun da geyim olmalıdır. Xarakter də belədir ki, insana baxanda geyimindən bilinir ki, o insan necə xarakterə malikdir. İndi hamı o qədər rəngarəng geyinir ki, sərbəstlik var. Hətta deyərdim ki, normadan da çıxırlar. Hər halda yenə milliliyimizi qoruyub saxlasaq, daha yaxşı olar. Yaşımıza uyğun gəyinsək, daha yaxşı olar. Bəzən görürsən ki, yaşlı insan yaşıllığını qəbul etmək istəmir, yaşına uyğun geyinmir. Bəlkə də, həmin insan o geyimdə özünü rahat hiss edir, amma qıraqdan yaxşı görünmür".



**Şəhər sakini Nurəddin Qarayev:** "Məncə, geyim xarakteri göstərə bilər. Bir insanın xarakteri onun geyimindən asılıdır. İnsan əgər iş görüşünə gedirsə, məncə, sport yox, klassik geyinməlidir. Geyim insanı təqdim edir. İş görüşməsinə gedirsənsə, özünü yaxşı cəhətdən təqdim etməlisən. Bəzi gənclər var ki, onların geyimini bəyənirəm. Çox vaxt gənclərimiz mentalitetə uyğun geyinir".



**Şəhər sakini İlkin Rüstəmov:** "İşə gedəndə klassik forma daha yaxşı olar. İnsanı daha səliqəli, işinə daha məsuliyyətli olduğunu göstərir. Gəzməyə gedəndə isə rahat geyim daha məqsədəuyğundur. Hamı dəblə ayaqlaşır demək olmaz. Məncə, bəziləri dəblə ayaqlaşır. Hamının geyimini bəyənmirəm. Mən boş geyimləri daha çox bəyənirəm. İş görüşməsində də geyim işə qəbul üçün önəmlidir".



**Şəhər sakini Fərhad Kərimov:** "Məncə, geyim xarakteri göstərmir. Çünki hərənin geyimi fərqlidir, daxili isə başqadır. İnsanı tanımaq lazımdır. Kiminsə paltarına görə kimsə fikir deyə bilməzsən, gərək xüsusi fərqləndirən paltar olsun. Yoxsa adi paltara görə heç kimə söz demək olmaz. Hərənin öz geyimi var. Məncə, gənclər səliqəli və yaxşı geyinirlər".



**Sosioloq Üzeyir Şəfiyev:** "Bilirik ki, moda məsələsi bu gün çox geniş yayılmış bir anlayışdır. Bu bir qədər industriya halını alıb. Müxtəlif sahə adamları özəlliklə də, ticari sahədə olanlar, istehsal sahəsində olan aktorlar moda industriyasının əsas istiqamətvericilərinə çevrilib və onlar bu tərzləri diqtə edirlər. Çünki bu böyük dvidend gətirən indsutriya halına gəlib.

Moda tərz deməkdir. Bu tərzi də cəmiyyət inkişaf etdikcə, sivilləşdikcə daha çox elitar tərzdə prioritet olub. Sonra bu, kütləviləşməyə başlayıb. Bir sıra aktorlar diktə edirlər. Yəni ki, istehsalat sahəsində bir sıra qüvvələr bu tərzləri diktə edirlər və hamının malına çevirirlər. Bu da şübhəsiz ki, insanların xarakterinə təsir göstərir. Bəzən insanlar modanın təsiri altında öz tərzlərini müəyyənləşdirirlər. Bu, həmişə uğurlu alınmır. Diqtə olunan moda bəzən insanın ruh halına təsir edir. Hər nə qədər geyim dəbdə olsa da, bu dəb hər kəsdə özünü doğrultmur. Ona görə də, ən adekvat olan odur ki, insanlar özlərinə rahat bildiyi tərzləri seçsinlər, nəinki diqtə olunan dəbi.

Moda trend ola bilər, ancaq hər insana uyarlı olmaya bilir. İnsanlar hansı paltarda özlərini yaxşı, özgüvənli hiss edirlərsə, onu tərcih etsinlər. Hökmən deyil ki, diqtə olunan dəbi seçsinlər. Qlobal səviyyədə burada işbazların da rolu var. İstehlak bazarına təsir etmək üçün hansısa bir geyimi moda kimi diktə edirlər və nəticədə həmin sahə üzrə böyük gəlir əldə edirlər.

Hesab edirəm ki, ən yaxşı dəb insanın özünün ruhunun uyduğu, özünü özgüvənli hiss etdiyi tərzdir. İnsanlar məhz daxili harmoniyası ilə elan olunan moda arxasında bir uyarlılıq hiss etmirsə, bunu qəbullanmamalıdırlar".



**Modelyer Şəlalə Maqsudova:** "Bilirik ki, moda hər fəsildə, hər ayda moda aləmində dəyişikliklər olur. Həm bicimlərdə, həm rənglərdə, həm parçalarda dəyişiklik olur. İlk növbədə rəngləri vurğulamaq istərdim. Rənglərdə 2025-ci ilin yaz kolleksiyasında zeytunu rənglərin tonları, birdi rəngləri, şabalıdı rənglər, boz, qaymağı rənglər daha çox gündəmdə olacaq. Bununla yanaşı klassikanın şahı olan ağ-qara rənglər hər zaman, hər fəsildə gündəmdə olur. Artıq qalın parçalardan kətan parçalara keçid edirik. Cinslər daha çox dəbdə olacaq. Nazik trikotaj parçalar gündəmdə olacaq. Biz qış kolleksiyasına fikir versək, görərik ki, qış kolleksiyasında əksər geyimlər boş bədən ölçüsündən, böyük hazırlanır. Yaz kolleksiyasında da bu tendensiya davam edəcək. Daha çox boş paltarlar, trapes, gen-bol biçilmiş ətəklər, bol şalvarlar, böyük bədən ölçüsündə koftalar, pencəklər gündəmdədir. Hazırlanmış pencəkləri geyinərkən nazik kəmərlərlə taxılaraq daha çox seçiləcək".

***Söylü Ağazadə***

# V D Academy-nin Azərbaycandakı ofisi fəaliyyətə başladı



***Dünən Bakıda təhsil və karyera sahəsində mühüm hadisə baş verib - V D Academy-nin Azərbaycandakı filialının rəsmi açılışı keçirilib. Açılış mərasimi təntənəli şəkildə baş tutub və tədbirdə elm və təhsil sahəsinin nüfuzlu nümayəndələri iştirak ediblər.***

Tədbiri Ankara Universitetinin rektoru, professor Necdet Ünüvar rəsmi şəkildə açıq elan edib. O, V D Academy-nin fəaliyyətini yüksək qiymətləndirərək bu əməkdaşlığın Azərbaycan-Türkiyə təhsil əlaqələrinin inkişafına mühüm töhfə verəcəyini bildirib. Açılış mərasimində TÖMER Baş direktoru Timur Gültekin, TÖMER Bursa Şöbəsi İdarə Koordinatoru Halil Çağlar, Dillər Universiteti Rektor müavini Jale Garibova və V D Academy-nin əməkdaşlıq etdiyi müxtəlif şirkətlərin rəhbərləri də iştirak ediblər.

Çıxış edən qonaqlar V D Academy-nin gənclərin xaricdə təhsilə inteqrasiyası, dil öyrənmə imkanlarının genişləndirilməsi və beynəlxalq əməkdaşlıqların inkişafı baxımından əhəmiyyətini vurğulayıblar. Yeni ofis, təhsil almaq istəyən gənclərə beynəlxalq proqramlar, dil kursları və karyera yönümlü təlimlər təklif etməklə yanaşı, yerli və xarici təhsil müəssisələri arasında körpü rolu oynayacaq.



# “Belə yerlərdə avtomobili park etmək qadağandır"

## AYDINLIQ GƏTİRİLDİ

”Dayanma qadağan olunmuş yerlərdə avtomobili park etmək qadağandır. Bunun 20 manat cəriməsi var. Avtobus zolaqları isə başqa məsələdir, cəriməsi də artırıldı. Amma istər taksi dayanacağı olsun, istər dayanma qadağan olunmuş yerlər olsun, belə yerlərdə avtomobili park etmək qadağandır”.

Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Yasin Mustafayev deyib.



O bildirib ki, dayanma və durma qaydalarını pozan şəxs nəqliyyat vasitəsinin yanında olmadıqda və həmin nəqliyyat vasitəsi yol hərəkəti və piyadaların hərəkətinə manea yaratdıqda (tıxac yaranmasına və digər nəqliyyat vasitələrinin və piyadaların hərəkətini mühüm dərəcədə məhdudlaşdırılmasına səbəb olma), nəqliyyat vasitəsi müvəqqəti olaraq Daxili İşlər Nazirliyinin ən yaxın mühafizə olunan duracağına aparılır və orada saxlanılır: ”Nəqliyyat vasitəsi dayanma və durma qaydalarının pozulmasına görə duracağa gətirilmişdirsə, nəqliyyat vasitəsinin sahibi və ya inzibati xətanı törətmiş şəxs inzibati cəriməni (müvafiq olaraq hesablanmış dəbbə pulu daxil olmaqla) və nəqliyyat vasitəsinin duracağa gətirilməsi və onun orada saxlanılması üçün haqqı həmin yerdə plastik kart, internet və ya ödəmə terminalı vasitəsilə ödəyə bilər. Bu halda sürücüyə müvafiq inzibati xəta haqqında protokolun, inzibati tənbeh tətbiq etmə haqqında qərarın surəti verilir və saxlanılmış nəqliyyat vasitəsi dərhal sahibinə qaytarılır. Digər hallar istisna olmaqla, dayanma və ya durma qaydalarını pozmağa görə şəxslər 20 manat məbləğində cərimə edilir.




Avtobusların (trolleybusların, tramvayların) dayanacağında və ya 5.12, 5.13 yol nişanlarından 15 metrdən az yaxınlıqda digər nəqliyyat vasitələrinin dayanmasına və ya durmasına görə şəxslər 40 manat məbləğində cərimə edilir. Velosiped və kiçik elektrik nəqliyyat vasitələri istisna olmaqla, digər nəqliyyat vasitələrinin velosiped yollarında dayanmasına və ya durmasına görə sürücülər 100 manat məbləğində cərimə edilir.

Yanqoşqusu olmayan motosikletlər, mopedlər, velosipedlər və kiçik elektrik nəqliyyat vasitələri istisna olmaqla, digər nəqliyyat vasitələrinin yolun hərəkət hissəsinin kənarında ikinci və sonrakı cərgələrdə dayanmasına və ya durmasına görə sürücülər 80 manat məbləğində cərimə edilir. 5.10.3 yol nişanları ilə işarələnmiş, avtobuslar, trolleybuslar və tramvaylar üçün hərəkət zolağı olan yollarda digər nəqliyyat vasitələrinin dayanmasına və ya durmasına görə sürücülər 100 manat məbləğində cərimə edilir.



Nizamlama vasitələrində başqa göstəriş nəzərdə tutulmamışdırsa, nəqliyyat vasitələrinin səkilərdə dayanmasına və ya durmasına görə sürücülər 60 manat məbləğində cərimə edilir. Şəxs dayanma və durma qaydalarını pozmağa fasiləsiz davam edirsə, həmin inzibati xətanın törədilməsinə görə gün ərzində təkrar inzibati məsuliyyətə cəlb oluna bilməz”.

***Söylü Ağazadə***



Elçin Bayramlı

# Biz faşizmə 2 dəfə qalib gəldik

***5 milyon insanın həlakı, onlarla ölkənin, on minlərlə şəhər kəndin dağılması ilə müşayiət olunan II Dünya Müharibəsi illəri bəşəriyyət tarixində ən ağır və dəhşətli dövr oldu. Almaniya və İtaliyada meydana gələn faşizm kabusu nəinki bu ölkələrin özünü, bütün bəşəriyyəti təhlükə altına almışdı.***

Bu müharibənin ən böyük hədəfi də SSRİ oldu. Bəşəriyyəti faşizmdən isə elə Sovet İttifaqı xilas etdi. 1945-ci il mayın 8-i gecəsi Almaniyanın təslim olması haqda müqavilə imzalandı- bu, əslində, Yaponiya ilə haqq-hesabın daha sonra çürüdülməsinə baxmayaraq, bəşəriyyət tarixində ən dəhşətli müharibənin sona çatmasını xəbər verirdi.

Böyük Vətən Müharibəsi illərində Sovet vaxtı dünya tarixində misli görünməmiş qəhrəmanlıq göstərdilər. 141-ci il 22 iyun gecəsində Almaniya işğal etdiyi 6 dövlətin orduları ilə birlikdə SSRİ-yə qəfil hücum etmişdi və hazırlıqsız yaxalanan Qızıl Ordu çətin vəziyyətə düşmüşdü.

Düşməndən canlı qüvvə, silah-sursat və hərbi texnika sayına görə 3 dəfə zəif olan Sovet Ordusu bu müharibədə yüksək mənəvi-ideoloji üstünlük, vətənpərvərlik, döyüşkənlik, xalqın birliyi, arxa cəbhənin ağlagəlməz dərəcədə gərgin zəhməti və nəhayət Stalin başqa olmaqla Sovet generalitetinin ağıllı taktikaları sayəsində qalib gəldi.

Bəşəriyyətin qorxunc faşizmdən xilas edilməsində respublikamızın da əvəzedilməz xidmətləri oldu. Azərbaycan xalqının oğul və qızları həm ağır döyüşlərin getdiyi cəbhə bölgələrində, həm də arxa cəbhədə böyük qəhrəmanlıq nümunələri göstərdilər.

Qısa zamanda respublikada 87 qırıcı təyyarə batalyonu və 1124 özünü müdafiə dəstəsi təşkil olundu. 1941-1945-ci Azərbaycanın 3,4 milyon əhalisindən 600 mindən çoxu cəbhəyə yollanmışdı ki, onlardan da yarısı döyüşlərdə həlak oldu. Azərbaycan diviziyaları Qafqazdan Berlinəcən mübariz döyüş yolu keçdilər.

130-a yaxın azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bunlardan Həzi Aslanov (2 dəfə), Adil Quliyev, Ziya Bunyadov, Gəray Əsədov, Məlik Məhərrəmov, Mehdi Hüseynzadə, İsrafil Məmmədov və başqalarını göstərmək olar.

Bundan başqa, 30 nəfər Şərəf ordeni ilə təltif olundu. Generallar Mahmud Əbilov, Akim Abbasov, Tərlan Əliyarbəyov, Hacıbaba Zeynalov və bir çox başqaları öz qəhrəmanlığı ilə xalqımızın şərəfli tarixinə yeni sətirlər yazdılar. Ümumilikdə isə, 170 mindən artıq Azərbaycan əsgər və zabiti SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edildi.

Respublika iqtisadiyyatı cəbhə üçün işləməyə başladı. Az bir vaxtda Bakı Qızıl Ordunun ən mühüm cəbbəxanalarından birinə çevrildi. Müharibə illərində Bakıda cəbhə üçün 130 növ silah və döyüş sursatı da istehsal olunub.

Böyük çətinliklərə baxmayaraq, neftçilərimiz fədakarlıqla çalışaraq cəbhəni və sənayemizi yanacaqla təmin edirdilər. 1941-1945-ci illərdə Azərbaycandan cəbhəyə yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı, paltar və ərzaqla dolu yük qatarları və gəmilər yollanırdı.

1941-ci ildə neftçilərimizin fədakar əməyi nəticəsində Azərbaycanın tarixində ən çox- 23,5 milyon ton istehsal olundu ki, bu da SSRİ-də istehsal olunan neftin 70%-dən çoxunu təşkil edirdi.

Ümumiyyətlə, müharibə illərində Azərbaycan neftçiləri ölkəyə 75 milyon ton neft, o cümlədən 22 milyon ton benzin və başqa neft məhsulları vermişdilər. Qətiyyətlə demək olar ki, faşizm üzərində qələbənin qazanmasında Bakı nefti də vacib amillərdən biri oldu. Lakin Azərbaycan xalqının bu müharibədə əsas xidməti cəbhəyə neft vermək deyildi. Yüz minlərlə əsgərimizin qəhrəmancasına döyüşməsi, o vaxtkı respublika rəhbəri Mircəfər Bağırov başda olmaqla xalqımızın arxa cəbhədə mütəşəkkil və gərgin fəaliyyəti əsas rol sayılmalıdır.

1945-ci ildə faşizm məğlub edildi və dünya bu bəladan xilas edildi. Lakin SSRi-nin dağılmasından sonra dünyada faşizm yenidən cücərməyə başladı. Belə cücərmə ocaqlarından biri də Ermənistan oldu. Azərbaycan xalqı isə faşizmlə 2-si dəfə qarşılaşdı və 30 ildən artıq davam edən mübarizədə qalib gəldi. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu öz ərazilərini erməni faşist rejiminin işğalından xilas etmək üçün hərbi əməliyyatlara başladı və cəmi ay yarım ərzində düşməni məğlub etdi. Digər xalqlar faşizmlə müharibədə 1 dəfə qalib gəlmişdilər, Azərbaycan xalqı isə 2 dəfə qalib gəldi- 1-ci dəfə 1945-ci ildə, 2-ci dəfə 2020-ci ildə. Bu cəhətdən faşizm üzərində Qələbə bayramı Azərbaycan xalqının ikiqat bayramı sayılır.

# Heydər Əliyev və Həmkarlar İttifaqları

***1969-cu ilin 14 iyulu Azərbaycanın tarixində unudulmaz günlərdən biridir. Həmin gün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi seçilmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk günlərindən cəmiyyətdə ədalətin təmin olunması istiqamətində gələcək fəaliyyətinin konturları açıq şəkildə görünürdü. Ulu öndərin Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli plenumundakı dərin məzmunlu tənqidi çıxışı çox böyük rezonans doğurmuşdur. Plenumdakı çıxışında Heydər Əliyev həmin dövrdəki mövcud problemləri, xüsusilə dövlət idarəçiliyi sistemindəki bürokratiya və korrupsiya hallarının yolverilməz olduğunu bildirərək demişdir:***

"Biz ayrı-ayrı vəzifəli şəxslərin davranışında özünü büruzə verən nalayiq hallara, pozğunluq təzahürlərinə göz yuma bilmərik. Mənəviyyat,əxlaq bütün işimizə nüfuz etməlidir. Kadrları açıq-aşkar, kütlələrin gözü qabağında seçmək, onlar haqqında kollektivin, adamların, iş yoldaşlarının rəyini nəzərə almaq lazımdır. Yalnız belə olduqda kadrların seçilməsi və yerləşdirilməsindəki bir çox səhvlərin qarşısını almaq, həmin sahədə işimizin səviyyəsini xeyli yüksəltmək olar.

...Biz rüşvətxorluq faktlarına qarşı ən qəti və amansız mübarizə aparmalı, rüşvətxorluğu doğuran səbəblərin kökünü kəsməliyik". Heydər Əliyevin bu cəsarətli çıxışı sovet dövlətindəki yalançı gurultulu şüarlara qarşı bir mövqe idi. Həmin dövr belə bir mövqe nümayiş etdirmək sözün həqiqi mənasında bir möcüzə idi. Çünki mərkəzin icazəsi olmadan hər hansı bir sahədəki vəziyyətin təhlil edilməsi qeyri mümkün idi.

Heydər Əliyev hər cür risqə rəğmən mövcud naqisliklərı açıq deməkdən, rüşvətxorluğa, korrupsiyaya qarşı barışmaz mübarizəyə başlamaqdan çəkinmədi. Ulu öndər qısa müddətdə respublikamızın iqtisadiyyatında böyük keyfiyyət dəyişikliklərinə nail oldu, Azərbaycan xammal istehsalçısından qabaqcıl, müasir sənaye bazasına çevrildi. Azərbaycan az bir müddətdə keçmiş SSRİ-də özünün layiqli yerini tutmağa başladı. Artıq hər bir azərbaycanlının mədəni, iqtisadi, elmi-texniki sahələrdə fəallığı sürətlə genişlənirdi. Bütün sahələrdə tədricən milli kadrlarımız ön sıralarda yerlər tuturdu. Milli kadr hazırlığına ciddi əhəmiyyət verən ulu öndər azərbaycanlı tələbələrin xaricdə təhsil almasına daim xüsusi diqqət yetirirdi. Belə ki, 1970-1980-cı illərdə keçmiş SSRİ-nin aparıcı ali məktəblərində 15 mindən artıq gənc ali təhsil almışdır. Bu mənada Heydər Əliyevin Azərbaycanın müstəqilliyini görən müdrik rəhbər və uzaqgörən siyasətçi olduğunu sonrakı dövrlər təsdiq etdi. Ümummilli liderin bütün varlığı ilə sevdiyi Azərbaycanın xoşbəxt gələcəyi uğrunda xidmətləri misilsizdir. Həyatımızın elə bir sahəsi yoxdur ki, Heydər Əliyev ora diqqət yetirməmiş olsun.

Heydər Əliyev Azərbaycanın inkişafında ictimai təşkilatların, o cümlədən həmkarlar ittifaqlarının roluna xüsusi əhəmiyyət verirdi. O, 2003-cü ildə AHİK-in II qurultayına gəlmiş xarici qonaqları qəbul edərkən həmkarlar ittifaqına olan münasibətini aşağıdakı sözlərlə bildirmişdir. "Mən əmək fəaliyyətimə başladığım vaxtdan həmkarlar ittifaqının üzvü idim, doğrudur, bu çox çəkmədi. Ona görə ki, sonralar uzun müddət hərbi xidmətdə oldum, orada isə həmkarlar ittifaqı yox idi. Sonra mən partiya, dövlət işinə keçirildim və o



*Hüseyn Qaraşov*
*Sosiologiya elmləri doktoru, professor*

vaxtdan bəri həmkarlar ittifaqının səliqəli üzvüyəm, üzvülük haqqını ödəyirəm, borcum yoxdur".

Azərbaycan KP MK-nin birinci katibi işlədiyi zaman Azərbaycan Həmkarlar İttifaqları Şurasının XIV, XV, XVI qurultaylarında iştirak etmiş və böyük nitqlər söyləyərək həmin dövrlərə uyğun olaraq respublika həmkarlar ittifaqlarının vəzifələrini göstərmişdir. Azərbaycan KP MK-nin 1972-ci ildə AHİŞ-in XIV qurultayına göndərdiyi məktubda oxuyuruq: "Azərbaycan Həmkarlar İttifaqları Şurası və həmkarlar ittifaqlarının respublika komitələri həmkarlar ittifaqı təşkilatlarının işinin səviyyəsini yüksəltməli, həmkarlar ittifaqı kadrlarını özlərinə tələbkarlıq ruhunda, işdəki nöqsanlara qarşı barışmazlıq ruhunda tərbiyələndirməlidir".

Artıq həmin dövrdə Azərbaycan həmkarlar ittifaqları Heydər Əliyevin göstəriş və tələblərini rəhbər tutaraq, öz fəaliyyətlərində əsaslı dönüş yaratmağa başladılar. 1977-ci ildə AHİŞ-in XV qurultayında söylədiyi nitqində Heydər Əliyev demişdir: "Hər bir həmkarlar ittifaqı təşkilatı.......fəhlələrin təşəbbüsünü müdafiə etməli, zəhmətkeşlərin ehtiyaclarının ödənilməsinə daim qayğı göstərməli..........əmək kollektivinin mübarizəsinin önündə getməlidir....kadrların düzgün seçilməsi müvəffəqiyyətin açarıdır, müvəffəqiyyət isə ən əvvəl rəhbər orqanlara seçilmiş adamlardan asılıdır. Həmkarlar İttifaqı işi yaradıcılıq işidir, məsuliyyət işidir,kim etimada layiq görülüb, həmkarlar ittifaqında böyük və ya kiçik bir işə irəli çəkilirsə, öz prinsipiallığı, düzlüyü, adamlara diqqətli münasibəti ilə kütlələrin etimadını doğrultmalıdır".

Göründüyü kimi avtoritar rejimdə belə Heydər Əliyev cəmiyyətdə Həmkarlar İttifaqlarının fəaliyyətinə xüsusi əhəmiyyət verirdi. Ulu öndərin tövsiyyəsi ilə həmkarlar ittifaqı orqanlarında rəhbər vəzifələrə istehsalatda bilavasitə özünü təsdiq etmiş kadrlar irəli çəkilirdi: Ağırmaşınqayırma sənayesi işçiləri həmkarlar ittifaqı Respublika Komitəsinin sədri vəzifəsinə Keşlə Maşınqayırma zavodunun frezerçi briqadasının briqadiri, Sosialist Əməyi Qəhrəmanı Şamil Əliyev, Neft və Qaz Sənayesi işçiləri həmkarlar ittifaqı Respublika Komitəsinin sədri vəzifəsinə neftçi, Sosialist Əməyi Qəhrəmanı İsrafil Hüseynov, Toxuculuq Sənayesi işçiləri həmkarlar ittifaqı Respublika Komitəsinin sədri vəzifəsinə Mingəçevir Toxuculuq Kombinatının usta köməkçisi, Sosialist Əməyi Qəhrəmanı Yaqub Rüstəmov irəli çəkilmişdir.

Ümumiyyətlə demək olar ki, həmin dövrdə ulu öndərin tövsiyyələri rəhbər tutularaq əmək kollektivləri həmkarlar ittifaqına rəhbər vəzifələrə qabaqcıl əmək adamlarının namizədliyini irəli sürürdü. İlk vaxtlardan Heydər Əliyev respublikamızda həmin dövrdə həmkarlar ittifaqı işinin tərkib hissəsi olan kurort sahəsinin inkişafına da xüsusi diqqət yetirmişdir. Onun təşəbbüsü ilə keçmiş SSRİ Nazirlər Soveti 1970-1980-cı illərdə Azərbaycanda bu sahənin inkişafı üçün xüsusi qərarlar qəbul etmişdir. 1982-ci ildə AHİŞ-in XVI qurultayındakı söylədiyi nitqində Heydər Əliyev demişdir: "Həmkarlar İttifaqlarının başlıca vəzifələrindən biri əmək adamlarının hüquqlarını və mənafeyini qorumaq, istehsalatda demokratiya prinsiplərini inkişaf etdirməkdir......... Bütün münaqişələrdə prinsipial mövqe tutmaq, əmək adamının da, dövlətin də mənafeyini ciddi surətdə qorumaq həmkarlar ittifaqlarının borcudur".

Həmin ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edilmişdir. SSRİ rəhbərliyində işlədiyi dövrdə də Heydər Əliyev əmək adamlarının mənafeyini hər şeydən uca tutaraq,həmkarlar ittifaqının fəaliyyətini daim diqqət mərkəzində saxlamışdır.Bununla əlaqədar SSRİ rəhbərliyində təmsil olunan şəxslərdən biri - keçmiş Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü E.K. Liqaçov yazır: "1986-cı ildə SSRİ Ali Sovetində Əmək kollektivləri haqqında qanun qəbul edilərkən, Heydər Əliyev müəssisələrin idarə olunmasında əmək kollektivlərinin hüquqlarını müdafiə etdi. O, əmək kollektivlərinin həyatında həmkarlar ittifaqlarının hüquqlarının azaldılmasının əleyhinə qətiyyətlə çıxış etdi. İşçini işdən azad edərkən həmkarlar ittifaqlarının razılığının mütləq olması maddəsinin əmək qanunvericiliyində öz əksini tapmasında Heydər Əliyevin böyük rolu oldu".

1993-cü ilin iyun ayında Azərbaycan Respublikası Milli Məclisinin sədri, oktyabr ayında isə respublikanın Prezidenti vəzifəsinə seçilən Heydər Əliyevin bilavasitə diqqəti və qayğısı sayəsində hər bir sahədə olduğu kimi Azərbaycan həmkarlar ittifaqlarının həyatında da yeni mərhələ başlandı.

Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf yolu seçdi. Həmkarlar ittifaqına olan ögey münasibət, təzyiqlər arxada qaldı, respublikada həmkarlar ittifaqı hərəkatı yeni bir mərhələyə qədəm qoydu. 1993-cü il 9 iyulda Nazirlər Kabineti ilə əmək və sosial - iqtisadi məsələlər üzrə Baş saziş qəbul edildi. Sosial tərəfdaşlığın subyektləri arasında sosial əmək münasibətlərinin formalaşmasının əsası qoyuldu. AHİK-in beynəlxalq əlaqələri sürətlə genişlənməyə başladı.

24 fevral 1994-cü ildə cəmiyyətdə həmkarlar ittifaqının statusunu müəyyənləşdirən "Həmkarlar İttifaqları haqqında" Qanun qəbul edildi. Göründüyü kimi, Heydər Əliyev prezidentliyinin ilk yarım ilində bu qanunu imzalayıb.

Respublikamızın Prezidenti cənab İlham Əliyevin AHİK-in III qurultayının iştirakçılarına göndərdiyi təbrik məktubunda deyildiyi kimi "Respublikamızı dərin sosial-iqtisadi və siyasi böhrandan çıxaran ümummilli liderimiz Heydər Əliyev həmkarlar təşkilatlarını müxtəlif siyasi qüvvələrin təsirindən qorumuş, öz missiyasının yerinə yetirilməsinə lazımi şərait yaratmışdır. Onların uzun illər ərzində formalaşmış maddi-texniki bazasının dağıdılmasının qarşısı alınmış, vətəndaş cəmiyyətinə yad olan inzibati-amirlik metodlarından imtina edilmiş, demokratik idarəçilik prinsiplərinə əsaslanan Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının möhkəmlənməsinə dəstək verilmişdir".

Heydər Əliyev respublikamızın ən çətin anlarında belə sosial-iqtisadi məsələləri daim diqqət mərkəzində saxlamışdır. 20 may 1994-cü ildə Əhalinin sosial müdafiəsini gücləndirmək və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşməsini təmin etmək tədbirlərinə həsr olunmuş müşavirədə Ulu Öndərimiz demişdir: "Biz respublikanın sosial-iqtisadi məsələləri ilə daim məşğul oluruq... Hesab edirik ki, bu respublikamızın müstəqilliyini möhkəmləndirmək və əhalinin rifah halını getgedə yaxşılaşdırmaq üçün strateji xətdir, yoldur. Bu yol sərbəst bazar iqtisadiyyatı, sərbəstləşdirmə proseslərinin davam etdirilməsi, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaradılması yoludur".

Heydər Əliyev bu sahədə həmkarlar ittifaqlarının fəaliyyətinə xüsusi əhəmiyyət verir. 1998-ci ildə keçirilmiş AHİK-in I qurultayına ünvanladığı təbrik məktubunda oxuyuruq: "Yeni mərhələdə həmkarlar ittifaqları əmək adamlarının kütləvi və müstəqil təşkilatına çevrilərək, onların iş şəraitinin yaxşılaşdırılması, əməyin təşkili, iqtisadi hüquqlarının qorunması, sosial müdafiə problemlərinin həll edilməsi yolunda daha böyük əzmlə çalışmalıdır".

Həmin məktubda həmkarlar ittifaqlarının beynəlxalq fəaliyyətinə xüsusi diqqət yetirən Ulu öndərimiz yazır: "Sosial məsələlərin həlli yolunda dünyada qəbul olunmuş standartların, inkişaf etmiş ölkələrin bu sahədə müsbət təcrübəsinin mənimsənilməsi və onların həmkarlar ittifaqları ilə faydalı əməkdaşlığı ölkəmizin beynəlxalq nüfuzunun daha da artmasında, qarşılaşdığımız sosial-iqtisadi problemlərin həllində mühüm rol oynaya bilər".

Heydər Əliyevin bu tövsiyələrini rəhbər tutaraq, Azərbaycan Həmkarlar İttifaqları beynəlxalq əlaqələrini daha da sürətlə inkişaf etdirirdi. 2001-ci ilin noyabr ayında AHİK Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasına bərabərhüquqlu üzv qəbul olunmuşdur. Bu təşkilatın xətt ilə AHİK bir sıra tədbirlərin təşkilatçısı və iştirakçısı olmuşdur. Azərbaycan həmkarlar ittifaqları Beynəlxalq Əmək Təşkilatının keçirdiyi bütün tədbirlərdə iştirak edərək, həmkarlar ittifaqlarının və onun üzvlərinin hüquqlarının qorunması, sahibkarlarla və hökumətlə münasibətlər sahəsində təşkilatın tövsiyə və konvensiyalarından istənilən səviyyədə istifadə edir.

# Qəlblərdə əbədi yaşayacaq LİDER

## Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol, əsasını qoyduğu siyasət daim Azərbaycana böyük uğurlar, möhtəşəm qələbələr gətirəcək

Azərbaycan xalqı dünyada ən sayılan, seçilən və hörmət sahibi olan xalqlardandır. Bu hörməti və dəyəri isə qətiyyəti, mübarizliyi və ədalətli mövqeyi ilə qazanıb. Məhz qətiyyət və cəsarət nəticəsində 30 avqust 1991-ci ildə Azərbaycan parlamentinin - Ali Sovetin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etdi. Bəyannamədə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanırdı. Təəssüflər olsun ki, bəzi qüvvələr çətinliklə qurulan müstəqilliyi hakimiyyət uğrunda savaşa qurban verməyə çalışdılar. Ötən əsrin 90-cı illərin əvvələrində Azərbaycanda bütün sahələrdə hərc-mərclik, özbaşınalıq, xaos hökm sürürdü. Hakimiyyətdə olan AXC- Müsavat cütlüyü mövcud vəziyyəti aradan qaldırmaqdansa haqq uğrunda səsini qaldıran xalqın səsini batırmağa çalışırdı. Hətta küçələrə çıxan insanlara atəş açmaqdan, həbs edib, türmələrə atmaqdan çəkinmirdilər. Vəziyyətin idarəolunmaz dərəcədə kritik olmasından istifadə edən Ermənistan ardıcıl olaraq Azərbaycanın torpaqlarını işğal edirdi. Artıq vəziyyət o qədər çətin və ağır həddə çatmışdır ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üzüzə qalmışdı. Azərbaycanı belə çətin vəziyyətdən xilas etmək üçün yeni bir siyasi təşkilatın yaradılması mütləq tarixi zərurətə çevrilmişdi. Hər zaman olduğu kimi bu dəfə də Azərbaycan xalqının ümid yeri Ümummilli Liderimiz, Xalqımızın xilaskarı Heydər Əliyev idi. Məhz bu məqsədlə 1992-ci il oktyabr ayının 16-da 91 nəfər Azərbaycan ziyalısı yeni bir siyasi partiyanın yaradılması təşəbbüsü ilə Heydər Əliyevin dühasına xüsusi müraciət ünvanladı. Həmin ilin oktyabrın 24-də Ulu Öndərimiz Heydər Əliyev ziyalıların müraciətinə müsbət cavab verdi. Beləliklə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsisi konfransı keçirildi və Dahi Öndərimiz partiyanın Sədri seçildi.

### Xalqa bağışlanan ömür

Tarixi çıxışlarının birində Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin ilk illərində ölkəmizdə cəriyan edən çətin, ağır dövrü barədə demişdir: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı" "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Xalqın çağırışı ilə ikinci dəfə hakiyyətə gələn Ulu Öndərimiz ölkəni və xalqı üzləşdiyi bəlalardan xilas edə bildi. Bu baxımdan 1993-cü ilin 15 İyun Milli Qurtuluş Günü - Azərbaycanın inkişafında, müstəqilliyində müstəsna rol oynayan tarixi gündür. Xilaskarlıq missiyasını öz üzərinə götürən Dahi Öndər Heydər Əliyev daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğradaraq, 1993-cü il iyunun 9-da Bakıya gəldi və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) institutu yaradıldı. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktorladan biri idi. Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılmasını hüquqi əsasda təsbit etmiş oldu. Bununla yanaşı, 1993-cü ildən Ulu Öndərin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu. Beləliklə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsi genişləndirildi. Bu isə demokratikləşmə prosesini olduqca sürətləndirdi.



### Ulu Öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb

2003-cü ildən Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən, onun ən dəyərli, siyasi varisi olan İlham Əliyevin timsalında bir daha onun dahiliyinin şahidi olduq. Azərbaycan xalqı həmişə o irsdən faydalanacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin "Heydər Əliyevin -100" illiyinin keçirilməsi barədə qərar bir daha dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq. Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir, bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. Onun fəaliyyətinin hər bir mərhələsi - istər Azərbaycanda hakimiyyətinin birinci dövrü (1969-1982), istərsə də müstəqilliyimizin bərpasından sonrakı dövr ayrı-ayrılıqda tədqiqat mövzusudur. Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən müdrik siyasət nəticəsində xalqın istək və arzusu olduğu bütün hədəflərə nail olunub. 2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərində xalqımızın etimadını qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən Cənab İlham Əliyev andiçmə mərasimində demişdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm". 2003-cü il də deyilən tarixi fikirlər yüksək səviyyədə həyata keçirilib. Böyük nailiyyətlərə, qələbələrə imza atan Azərbaycan Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, qüdrətli, lider dövlətinə çevrildi. 44 günlük Vətən Müharibəsində 30 illik erməni işğalına son qoyuldu, tarixi Azərbaycan torpaqlarında suverenliyimiz bərpa olundu. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işağldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. 2023-cü ilin aprelin 23 -də isə Xankəndi-Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd- keçid məntəqəsi quruldu. Bunlada suverenliyimiz təmin olundu. 2023-cü il sentyabrın 19-başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə Qarabağdakı bütün terorçular hərbi birləşmələr, o cümlədən onlara rəhbərlik edənlərin bir qismi məhv edildi, əsas başçıları isə ədalət mühakiməsinə verildi. Hazırda Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Saakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi keçirlir. Təbii ki, cinayətkar dəstə üzvlərinin hər biri məhkəmənin qərarı ilə layiq olduqları cəzanı alacaqlar.

### Son 22 ildə həyata keçirilən uğurlu inkişaf strategiyası

2020-ci ilin sentyabrın 27-də başlayan və parlaq hərbi, siyasi, diplomatik qələbədən sonra işğaldan azad edilən ərazilərdə böyük quruculuq abadlıq işləri həyata keçirilir. Bütün azad edilən ərazilərə quruculuq, abadlıq, bərpa işlərindən sonra öz doğma yurdlarına köçürülürlər. Bu günədək işğaldan azad edilmiş ərazilərə 5 şəhər, 5 kənd olmaqla, 10 yaşayış məntəqəsi üzrə köçürülmə olub, ümumilikdə 10 mindən çox keçmiş məcburi köçkün doğma yurduna qayıdıb.Bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib. Bildirilib ki, ötən il doğma yurda qayıdanların sayı 5 mindən çox olub: "Hazırda Qarabağda və Şərqi Zəngəzurda, 2023-2024-cü illərdə ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müessisələrində işləyənlərin sayı 34 min nəfərdən çoxdur. 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı əhatə olunan şəhid ailələrinin, qazilərin maddi və mənəvi qayğıları ilə yanaşı, mənzil, məişət məsələləri ilə də öz həllim tapır. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Rəsmi məlumata istinadən demək olar ki, parlaq hərbi qələbədən sonra şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 128 min şəxsə 348 min xidmət göstərilib. Belə ki, şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min şəxsə 118 min aylıq sosial ödəniş, 23,1 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 050 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib.Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 64,3 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.Müharibə ilə əlaqədar əlilliyi olan 2 151 şəxs 57,4 min reabilitasiya vasitəsi, o cümlədən 473 şəxs 566 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 21,9 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,6 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Son 22 ildə Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. Bu uğurların davamlı olacağı şübhəsizdir. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət yalnız və yalnız xalqın rifahının daha da yaxşılaşmasına, dövlətin tərəqqisinin daha möhtəşəm şəkildə inkişaf etdirilməsinə hesablanıb.

***İLHAM ƏLİYEV***

# Qadın və cinayət:
## biz tək özümüz üçün yaşamırıq

Qadın və cinayət. Bir-birinin əksi olan bu məfhumlar təəssüf ki, çox zaman bir araya gəlir. Qadın cinayət törədir. Lakin bunu necə bacarır, necə həyata keçirir, bax maraqlı olanı da budur. Bizim mentalitetə yad olan qadın və cinayət məfhumlarına rast gələndə təbii ki, düşünməyə, araşdırmağa ehtiyac duyursan. Necə olur ki, nənə-analarımızın gecəli-gündüzlü söhbət və tövsiyəsi, tərbiyəsi qarşılığında biz cinayətkar oluruq? Necə olur ki, anamızın o müqəddəs südü ilə iliyimizə işləyən qadınlıq zərifliyini, ucalığını, incəliyini, munisliyini zora, gücə, əliəyriliyə, dələduzluğa, möhtəkirliyə çevirib cinayət törədir, həbsxana qapılarını üzümüzə açırıq? Necə olur ki, analarımızın o dəruni söhbətlərini dinlədikcə ailə, ana olmaq, körpəmizi sevə-sevə böyütmək kimi qurduğumuz ülvi xəyalları bir səhvlə məhv edirik... Dəyərmi görəsən hansısa dünya malı, yaxşı geyinmək, yaxşı qidalanmaq, yaxşı evlərdə yaşamaq, qonşudan geri qalmamaq xətrinə bu munis hisslərdən məhrum olmağa? Dəyərmi? Biz bu əməllərlə nələri itiririk, bax bunun fərqində olan varmı bu qadınlar arasında? Yəni bir cinayəti törədib həbsxana divarları arasında bir neçə il yaşadıqdan sonra real həyata necə qayıdır insan? Sən yenədəmi o sənsən? Bax bu sual o qədər maraqlı gəlir ki, insana...

Təəssüf ki, qadın cinayət də törədir, həbsxanaya da düşür, hətta orada uşaq da dünyaya gətirir. O məsum uşaqlar isə məhkum olurlar. Bu barədə danışaq...

### Biz tək özümüz üçün yaşamırıq

Zamanla həyat bizə öyrədir ki, biz tək özümüz üçün yaşamırıq və yaşamamalıyıq da. İstər cəmiyyətimizin kişi, istərsə də qadını olsun, qulaqlarımıza hakim kəsilən söz o olub ki, elə yaşamalısan ki, səninlə heç kim utanmasın. Yəni, ilk növbədə, bağçada, məktəbdə, məhəllədə, sonra universitet, iş həyatında, daha sonra ailədə, ümumilikdə cəmiyyətdə özünü elə aparmalı, elə hərəkət etməlisən ki, utandırıcı olmayasan. Bəli, bizim tərbiyəmizin bünövrəsində bu amillər dayanıb həmişə. Səhv hərəkətimiz qınaq olunub, valideynlərimizin, müəllimlərimizin, qonşularımızın etirazına, tənbehinə çevrilib. Beləliklə də xarakterimizə doğru olmaq, düzgün yaşamaq, düz yolla getmək kimi keyfiyyətlər sirayət edib. Hələ xüsusilə qızların tərbiyəsi Azərbaycan ailəsində bir başqa xətt təşkil edib həmişə. Onlara ismət, abır-həya, utancaqlıq aşılanıb. Onlara böyüyün-kiçiyin yerini bilmək, həddini aşmamaq, atanın, qardaşın, həyat yoldaşının yolunu gözləmək, hörmətini saxlamaq, qulluğunda durmaq kimi ailə dəyərlərimizi özündə ehtiva edən hisslər aşılanıb. Ən əsası isə qızlarımız ailələrimizdə ana olmağa hazırlaşdırılıb. Onlara ana olmağın sirləri açıqlanıb. Bu şərəfli adın ülviliyi, onun böyüklüyü, eyni zamanda çətinliyi öyrədilib. Bir sözlə, bizə ailələrimizdə "sən tək özün üçün yaşamırsan, sən sabah bir ailənin, bir cəmiyyətin fərdi olacaqsan" deyiblər. Elə yaşa ki, hərəkətindən heç kim utanmasın, söyləyiblər...

### Məhkum və məsum uşaqların monoloqu

Ay ana, bətnində mən ola-ola cinayət törətdin. Məni də özünə yoldaş etdin. İkimiz bir arada törətdik o cinayəti. Çünki mən sənin canından ayrılmamışdım, dünyaya gəlməmişdim. Mən doğulduqdan sonra ayrıca şəxsiyyətə çevriləcəkdim, hüquqlarım olacaqdı. İndi tək sənə məxsusam. Ana, sənin həbsxanaya düşməyinlə, məhkum olunmağınla tək özün deyil, bətnindəki mən də məhkum oldum. Mən də sənin kimi məhbusam. Baxmayaraq ki, mən məsum, günahsızam, lakin məni dünyaya gətirəcək varlığın-sənin günahlarının qurbanıyam. Məni dünyaya gətirəcək sənin tək özün üçün yaşamadığını dərk etməməyinin əzabını çəkirəm.



Məni nə üçün buralara gətirib çıxarmısan, ay ana? Mən məhkum ananın övladı olmaq istəmirəm. İstəməzdim ki, mənim anam oğurluq, dələduzluq etsin. Narkotik, spirtli içki qəbul edən, onu satan olsun. Axı bu, sabah mənim kimi yüzlərlə körpənin ölümü, sağlamlıq imkanları məhdud şəkildə doğulması deməkdir. Ay ana, ya məni seçərdin, ya da o yolu. Nə üçün məni də özünə yoldaş etdin. Mən nə üçün həbsxanadakı qadının bətnində doğum günümü gözləməliydim. Mən nə üçün digər anaların bətnindəki uşaqlartək parklarda, xiyabanlarda, açıq, təmiz havada gəzməməliydim. Bilirsən ürəyim nələr istəyir? Sənin ən ləziz yeməkləri yeməni, qanınla qanıma ötürməni istəyir. Mən nə üçün həbsxanada bişirilən eyni yeməklərlə hər gün qidalanmalıyam?

Mən öz evimizdən doğum evinə getmək istəyirdim, həbsxanadan yox. Atamın xəstəxana qarşısında bizi gözləməsini istəyirdim, həbsxana işçilərini başım üzərində görmək istəmirdim. Xəstəxanadan öz evimizə getmək istəyirdim, həbsxanaya yox. Mənimlə bərabər xəstəxanadan çıxan uşaqları gördünmü, ana? Ana-atalarını da gördünmü? Mənim onlardan fərqim nədir? Nə üçün onlarla elə oradaca yollarımız ayrıldı?

Ay ana, mən süd istəyirəm. O südü ki, təmiz, saf ola. İçində nə narkotik, nə spirt olmaya. O südü istəyirəm ki, tərkibi minerallarla deyil, mənəviyyatla zəngin ola. Oğurluq edən əllərdən, dələduzluq edən bədəndən, başqasının ailəsini dağıdan, haqqını yeyən, ömrünü yarımçıq qoyan, mənim kimi körpələri gözüyaşlı, ata-anasız edən ruhdan süzülən südü istəmirəm. Mən qoynundan çiçək ətri gələn ananın qoxusunu ciyərlərimə çəkmək istəyirəm. Qan qoxusunu, çirkab qoxusunu deyil. Mən dilinə yalan, riyakarlıq gəlməyən ananın laylalarını dinləmək istəyirəm, kimlərisə yalanları ilə aldadan, yoldan çıxaran ananın deyil.

Kaş ki, dilim olardı, kaş ki, gücüm çatardı, nə südünü əmərdim, nə qoxunu alardım, nə də səninlə burada bir saniyə qalardım. Mən bu qədər zülmə tabeyəmmi? Elə bilirsən ki, bununla hər şey bitəcək? Günahlarına görə cəzanı alıb həyata əvvəlki kimi qayıda biləcəksən? Bəlkə də sən qayıdacaqsan, bəs mən? Mənə bağçada, məktəbdə, məhəllədə məhkumun övladı deməyəcəklərmi? Sənin bir səhvin mənim ömürlük cəzam, başıaşağılığım, dili qısalığım olmayacaqmı? Kaş ki heç doğulmazdım, kaş ki sənin övladın olmazdım...

***

Bəli, həyatımızda məhkumluqda doğulan, məhbusluğa gözlərini açan, lakin dünyaya gələn bütün körpələr kimi məsum olan uşaqlar var. Nədir onların günahı? Nə üçün başqa uşaqlardan fərqli olaraq məhkumluqda anadan doğulurlar? Nə üçün gözlərini məhbusluğa açırlar? Bu, bir alın yazısıdırmı? Yoxsa həm özünün, həm də övladının alın yazısını etdiyi cinayətlərlə dəyişdirən qadınlarımızın bağışlanmaz səhvidir? Bu barədə söhbət açmağa həqiqətən böyük ehtiyac var.



### Kimdir günahkar?

Nədir o körpələrin günahı? Onlar nə üçün məhkum olmalıdırlar? Nə üçün məhbus həyatı yaşamalıdırlar, nə üçün məhbus qadının dünyaya gətirəcəyi varlıq olmalıdırlar? Heç qadınlarımız bu barədə düşünürlərmi? Düşünürlərmi ki, mən hamiləyəm, bir neçə aya uşaq dünyaya gətirəcəyəm. Və yaxud da irəlidə ailə həyatı qurub, ailə, uşaq sahibi olacağam. Düşünürlərmi? Düşüncələri cinayətə meyillənəndə, əlləri oğurluğa uzananda, dələduzluq fikirlərinə hakim kəsiləndə, ayaqları onları narkotik alverinə-kimlərinsə ölümünə fərman verməyə aparanda qadın olduqlarını fikirləşirlərmi?

Qadın ürəyi həssas olur, o necə adam öldürə bilir? Qadın zərif məxluqdur, o necə risklərə gedib oğurluq edə bilir? Qadın özünə necə yaraşdırır ki, övladlarına tərbiyə verəcək dilindən dələduzluq etməsi üçün yalanlar çıxır? Onu bütün bunlara vadar edən nədir? Yuxarıda buna cavab tapmağa çalışmışıq. Əlbəttə ki, bu sualın cavabı o qədər əsassız amillərə bağlıdır ki, dərindən düşünən qadın özünü və gələcəyini utanca çevirəcəyi övladını o amillərdən asılı etməz. Onu cinayət etməyə meyilləndirən hissləri içində boğa, o hisslərlə mübarizə apara bilər.

Qadın heç də zəif məxluq deyil, o, yeri gələndə kişidən də güclüdür. Həm də bu güc tək fiziki deyil, həm də mənəvidir. Qadın analıq hisslərinə, övladına o qədər bağlıdır ki... Heç olmasa bu iki gözəl hissin xətrinə cinayət törətməyin, əziz qadınlar.

### Kişilər, sözüm sizədir

Qadınların cinayət törətməsində onlardan çox, kişilər günahkardırlar. Əgər bu gün qadın cinayətindən danışırıqsa, bu məsələyə toxunmamaq yanlış olar. Qadınları cinayət etməyə çox halda kişilər sövq edir, bu, faktdır. Onların qadınlığından-diqqət çəkməsindən, geyimlərinin uyğunluğundan, dillərinin şirinliyindən yetərincə istifadə edirlər. Qadınları öz iyrənc əməllərinə alət edirlər. Bəzən isə kişilərin özləri qadınlara xəyanətləri-aldatmaları, yalan danışmaları, artıqəskik hərəkətləri ilə onların cinayət törətməsinə səbəb olurlar.

Kişilər, sözüm sizədir. Belə etməyin. Bəzən sizi sevən, əsiriniz olan, bəzənsə ehtiyacı olan, övladının bir günlük çörəyi üçün sizə ümid edən qadınlardan bu məqsədlə istifadə etməyin. Axı sizləri də bir qadın dünyaya gətirib. Evinizdə həyat yoldaşınız var, qızlarınız böyüyür. Onları düşünün, ətrafınızdakı bütün qadınlara onlara baxdığınız gözlə baxın.

Əslində kişilər qadınların qoruyucusudur. Qadınları qoruyun. Onları öz alətinizə çevirmək istəyəndə analığını düşünün. Gözü yolda, həyatda olan övladlarını fikirləşin. Bəlkə o qadın bir səhv yoldadır, onu bu yoldan qaytarın. Ona yeni bir həyat verin. Bu, həm sizin cəmiyyətimizə, milli mentalitetimizə töhfəniz, həm də Allah qarşısında dəyəriniz olar.

### Statistik göstəricilər qadın cinayəti ilə bağlı nə deyir

Bəzən baş verən hadisələrin hər birinə "alın yazısıdır",- deyib özümüzə təsəlli verməyə çalışırıq. Lakin başımıza gələn hadisələrin hamısı alın yazısıdırmı? Bir qadının cinayət törətməsi onun alın yazısı deyil. Həyat yolunu düzgün seçməməsidir. Sosial şəbəkələrdə məhkum qadınların videoları-söhbətləri, etirafları ilə qarşılaşıram. Aşağıdakı rəyləri oxuyuram. Görürəm ki, etdiyi cinayətə görə onu günahsız saymayanlar, günahkar sayanları hələ qınayanlar da var. Məsələn, dünən insanlardan külli miqdarda pul alıb onların işə düzəlməsinə "köməklik" göstərən, sonda işin üstü açılanda cinayət məsuliyyətinə cəlb edilən bir qadının videosuna baxırdım. Günahlarını boynuna alırdı, peşmanlığını vurğulayırdı. Lakin rəylərdə onu heç də günahkar hesab etməyən qadınlarımız da var idi. Kimisi "uşaqları üçün edib" deyirdi. Kimisi qadını atan həyat yoldaşını qınayır, "düz eləmir, o puldan o da yeyib" yazırdı. Kimisi qayınanasını qınayırdı. Lakin əsl qınaq mənbəyi cinayətkar olmalıdır. Biz ictimai qınaqla qadınlarımızı səhv yoldan çəkindirə bilərik.

Kaş ki ümumiyyətlə, cinayət olmasın. Qadınlarımız xüsusilə çirkin işlərin içində olmasın. Son illər qadınların törətdiyi cinayətlərlə bağlı ölkəmizin statistik göstəricilərinə də nəzər saldım. Maraqlı faktlarla qarşılaşdım. Cinayət törətmiş qadınların sayı son 20 ildə ən yüksək göstərici olaraq 2005-ci ildə 2520, 2010-cu ildə 2318 nəfər olmuşdursa, sonrakı illərdə azalan xətt müşahidə olunur. Belə ki, 2019-cu ildə bu hal 1039, 2020-ci ildə isə 869 olmuşdur. Qeyd olunan illərin hər birində oğurluq, dələduzluq, xuliqanlıq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi kimi cinayət növləri üstünlük təşkil edir. Belə ki, 2020-ci ildə qadınlarımız tərəfindən 102 oğurluq, 98 dələduzluq, 34 xuliqanlıq, narkotik vasitələrlə bağlı 83 cinayət törədilmişdir. 2020-ci ildə törətdiyi cinayətə görə 399 qadın həbs olunmuşdur.

2022-ci ildə 1227, 2023-cü ildə 1299 qadın cinayət törədib. Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, 2024-cü ilin ilk 6 ayı ərzində cinayət törətmiş şəxslərin arasında qadınların xüsusi çəkisi 5,3 faizdir. Məlumata görə, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə cinayət törətmiş qadınların sayı 10,0 faiz artıb.

Bizim adət-ənənələrimizdə qadının polis, məhkəmə, prokurorluq orqanlarına ayağının dəyməsi böyük qüsur hesab edilib. Qadın nədir, həmin strukturlara getdi nədir, deyilib. Buna görə də çox təəssüf edilməli haldır ki, bizim qadınlar sorğuya çəkilir, həbs olunur. Bu qadınlar arasında həbsxanada körpəsini dünyaya gətirənlərin də olduğunu nəzərə alsaq, yenə də çox təəssüflər olsun...

***Mətanət Məmmədova***

# Ulu Öndər Heydər Əliyevin müasir tariximizdə milli və siyasi birlik ideologiyası

Azərbaycan tarixən müxtəlif sivilizasiyaların qovuşduğu məkan, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı ərazi olaraq tanınmışdır. Prezident İlham Əliyevin təşəbbüsü və birbaşa egidası altında keçirilən və beynəlxalq dialoqu təşviq edən forumlar ölkəmizin bu sahədə nüfuzunu daha da artırmışdır. Azərbaycan dünyada təkcə ölkəmizdə yaşayan 30-dan çox xalqın, 4 səmavi dinin və digər humanist dini cərəyanların nümayəndələrinin qardaşlığının, dostluğunun nümunəvi məkanı deyil, həm də qlobal dialoq məkanı kimi dəyərləndirilməyə başlanılmışdır. Zaman-zaman müxtəlif etnik və dini konfessiyalar arasında yaranan birlik sonunda Azərbaycan dövlətini formalaşdırmış və dövlətin gücünün əsasını təşkil etmişdir. Dövlətimizin daha da güclü, millətimizin daha firavan həyatı üçün bütün güclərini sərf edən, bir bayraq altında birləşərək vahid Azərbaycan xalqını formalaşdıran hər bir etnosun ləyaqətli nümayəndəsinin dilinin əzbəri olan Ulu Öndər Heydər Əliyevin






*Həbib Misirov,*
*YAP Kəlbəcər Rayon Təşkilatının sədri*

"Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" ifadəsi dövlətimizin ideologiyası olan Azərbaycançılığı doğurmuşdur. Bunun nəticəsidir ki, Azərbaycanda dialoq tam təbii əsaslar üzərində formalaşmış və dövlətimizin gücünün, təhlükəsizliyinin sütunlarından birinə çevrilmişdir.

Müstəqil Azərbaycanın dövlət siyasətində ölkəyə fayda gətirən, milli təhlükəsizliyimizə və xalqımızın firavan gələcəyinə xidmət edən son dərəcə vacib qlobal, regional və ölkədaxili dialoq təşəbbüsləri ilk dəfə Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə rəsmi dövlət mövqeyi kimi ortaya qoyulmuşdur. Transmilli korporasiyaların və onların təmsil etdiyi güclü dövlətlərin Azərbaycanın təşəbbüsü olan iqtisadi dialoqda - "Əsrin müqaviləsi"nin imzalanmasındakı təmasını ilk belə platforma hesab edə bilərik. Planetar düşüncə adamı, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin böyük uzaqgörənliklə reallaşdırdığı bu iqtisadi dialoq mühiti, əslində, təkcə ölkəmizin təbii resurslarından səmərəli istifadə nəticəsində dövlətimizin daha da güclənməsi, xalqımızın rifah halının daha da yaxşılaşdırılması missiyası daşımırdı. Bu platforma həmçinin Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin ömrünü Azərbaycanın müharibəyə hazır olacaq gücü qazanana qədər uzatmaq, təhdidləri neytrallaşdırmaq və qlobal antaqonist güclərin Azərbaycan üzərindən səmərəli birgə fəaliyyətini qurmaq niyyəti daşıyırdı.

Ulu Öndərin uzaqgörənliklə yaratmış olduğu Yeni Azərbaycan Partiyası da əslində Azərbaycan naminə milli birlik nümayiş etdirən Azərbaycan xalqın siyasi platforması kimi yarandı. Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Hərbi məğlubiyyət daxili böhranla tamamlanmaqda idi. Ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqilliyini sual altında qoymuşdu. AXC-Müsavat hakimiyyətinin ifrat səriştəsizliyi, ölkənin təcrid olunmuş vəziyyətə düşməsi, daxildə vətəndaş müharibəsi təhlükəsi xalqın milli və siyasi birliyini - bir sözlə YAP-ın yaranmasını tarixi zərurətə çevirmişdi.

Ümummilli Lider Heydər Əliyevin siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqliyi Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Milli birlik siyasi birlik şəklində daha da möhkəmləndir və vahid ideologiyadan çıxış etməyə başladı.

Ümummilli Lider Heydər Əliyevin müxtəlif spektrlərdə formalaşdırdığı birlik və dialoq mühiti Azərbaycanın hətta ərazi bütövlüyü məsələsində - 30 ilə yaxın müddətdə davam edən Qarabağ münaqişəsinin həllində belə dialoq və sülh tərəfdarı olduğunu bütün dünyaya nümayiş etdirirdi. Milli və siyasi birliyə əsaslanan dialoq strategiyası Azərbaycanın beynəlxalq enerji layihələrində iştirakının təməlini qoydu, Xəzər dənizinin statusu məsələsini davamlı olaraq gündəmdə saxladı, Azərbaycanı istər qonşu, istərsə də uzaq ölkələrin ortaq dialoq məkanına çevirdi. Sonra isə dünyanın siyasi mənzərəsini dərindən duymaq, onun gələcək istiqamətlərini dəqiq proqnozlaşdıraraq dahiyanə qərarlar qəbul etmək kimi böyük siyasi miras və Azərbaycanı bu yolda bütün təhlükələrdən qorumaq vəsiyyəti bu müqəddəs və taleyüklü yolun ləyaqətli yolçusu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ötürüldü.

Azərbaycana Prezident kimi rəhbərlik etdiyi bütün dövr ərzində cənab İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi irsini ləyaqətlə və yüksək peşəkarlıqla davam və inkişaf etdirərək ölkəmizə istər xarici, istərsə də daxili siyasətdə böyük uğurlar qazandırmışdır. Bu uğurlar təkcə ölkəmizin inkişafı və tərəqqisi üçün deyil, beynəlxalq və regional təhlükəsizliyin və qarşılıqlı etimadın təmin olunması üçün də böyük əhəmiyyət kəsb etmişdir. Prezident İlham Əliyevin birbaşa təşəbbüsü ilə Azərbaycan regional müstəvidə bir neçə üçtərəfli və çoxtərəfli formatların təşəbbüskarı olmuşdur. Azərbaycan-Rusiya-İran, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Türkiyə, Azərbaycan-Türkiyə Pakistan, Azərbaycan-Türkiyə-Türkmənistan kimi dialoq platformaları regional problemlərin müzakirəsi, qarşılıqlı əməkdaşlıq əlaqələrinin spektral inkişafı baxımından olduqca əhəmiyyətli təşəbbüslərdir.

Qlobal miqyasda olduqca böyük səmərə verən dialoq təşəbbüslərini mədəniyyət, din, hərbi, siyasi, iqtisadi müstəvidə öyrənən araşdırmaçılar bəzi hallarda siyasi və iqtisadi birlikləri, həmçinin dialoqları müvəqqəti xarakterli hesab edir və bu təşəbbüsləri ötəri problemlərlə məşğul olan hal kimi qələmə verirlər. Lakin reallıq tamam başqa həqiqətləri diktə etməkdədir. Əgər ölkədə siyasi və millik birlik, həmçinin plüralizm, dialoq mühiti və bunun qazandırdığı siyasi sabitlik olmazsa, o zaman həmin ölkədə davamlı inkişafdan söhbət gedə bilməz. Baş verməsi mümkün olan siyasi çəkişmələr öz potensialında süni şəkildə körüklənmiş iğtişaşları, icazəsiz dinc, yaxud silahlı aksiyaları, milli-dini münaqişələri, suverenliyə və müstəqilliyə təhdidləri ehtiva edir. Bu səbəbdən də məkrli və Azərbaycan dövlətçiliyinə müxalifətdə olan xüsusən xarici qüvvələri, həmçinin də daxili birlikləri neytrallaşdırmaq üçün siyasi-ideoloji birlik təşəbbüsləri son dərəcə vacibdir və bu davamlı hal almalıdır. Milli və siyasi birliyin davamlı olması, Ulu Öndər ideyalarının əbədi yaşaması üçün vətənpərvər və milli dövlətçilik təfəkkürü olan nəsillər yetişdirmək, gənc nəsli arzulanan gələcəyə hazırlamaq lazımdır. Bu hər bir ölkənin rifahı, suverenliyi və davamlı gələcək inkişafı üçün zəruri məsələdir. Gələcək nəsil xüsusilə bu məqamı anlamalı və ölkəmizdə siyasi həmrəylik mühitinin daha da dərinləşməsi, onun ölkəmiz, xalqımız üçün faydalı olması üçün daim hazırlıqlı olmalıdır. Belə olan halda dövlətimizin müstəqilliyi əbədi, dönməz və sarsılmaz olacaq, insanlarımız daim sülh və rifah içində yaşayacaqdır.

***Uşaq bezləri körpə baxımında ən əsas və vacib ehtiyaclardan biridir. Körpənin dəri sağlamlığının qorunmasında və rahatlığının təmin edilməsində düzgün uşaq bezi seçimi və dəyişdirmə üsulları böyük əhəmiyyət kəsb edir. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

# Uşaq bezi alarkən hansı məqamlara diqqət edək?

ARAŞDIRMA

## Bez seçərkən nələrə diqqət etməliyik?

Bez seçimi həm körpənin rahatlığı, həm də dəri sağlamlığı üçün vacibdir. Səhv uşaq bezinin seçilməsi dəri qıcıqlanması və narahatlığa səbəb ola bilər. Düzgün uşaq bezi seçərkən nəzərə alınmalı olan əsas amillər bunlardır:

**1. Bezi ölçüsü və çəki uyğunluğu**

Uşaq bezləri ümumiyyətlə körpənin çəkisinə görə təsnif edilir. Bezi sıx olmamalıdır, həm də kifayət qədər yaxşı oturmalıdır. Çox sıx olan uşaq bezləri körpənin dərisinə təzyiq göstərərək qıcıqlanmaya, çox boş olan isə sızmalara səbəb ola bilər.

**2. Absorbsiya qabiliyyəti**

Yaxşı uşaq bezi mayeni tez udmalı və körpənin dərisini quru saxlamalıdır. Bu, bir gecədə istifadə edilən uşaq bezləri üçün xüsusilə vacibdir. Bezi seçərkən, uzunmüddətli qoruma və yüksək udma qabiliyyəti olan məhsullara üstünlük verin.





**3. Dəriyə uyğun maddələr**

Körpənizin həssas dərisi üçün hipoalerjenik və qoxusuz uşaq bezlərinə üstünlük verilməlidir. Sintetik materiallar əvəzinə pambıq kimi təbii materiallardan hazırlanmış uşaq bezləri dərinin qıcıqlanması riskini azaldır.

**4. Sızdırmazlıq manеələri**

Yan maneələri olan uşaq bezləri mayenin sızmasının qarşısını alır və körpənin paltarını təmiz saxlamağa kömək edir.

**5. Hərəkət azadlığı**

Körpənin rahat hərəkət etməsi üçün elastik bantlı uşaq bezlərinə üstünlük verilməlidir. Xüsusilə sürünmə və yerimə mərhələsində olan körpələr üçün elastik və davamlı uşaq bezləri vacibdir.

**6. Ekoloji cəhətdən təmiz seçimlər**

Ətraf mühitə diqqətli ailələr bioloji parçalana bilən materiallardan hazırlanmış uşaq bezlərinə üstünlük verə bilərlər. Uşaq bezlərinin istehsal prosesində istifadə olunan kimyəvi maddələrin ətraf mühitə zərər vermədiyinə əmin olun.

**7. Gecə və gündüz bezi**

Gecə istifadəsi üçün daha yüksək udma qabiliyyəti olan uşaq bezlərinə üstünlük verilməlidir. Gündüz fəaliyyətləri zamanı daha incə və yüngül uşaq bezləri körpənizin rahatlığını artırır.

**8. Qiymət və performans balansı**

Uşaq bezləri müntəzəm istifadə olunan məhsul olduğundan, qiymət mühüm amildir. Ancaq sırf qiymətə görə seçim etmək əvəzinə keyfiyyətə də fikir verilməlidir.

## Bezi necə dəyişdirmək olar?

Körpənin bezinin dəyişdirilməsi həm gigiyena, həm də dəri sağlamlığı üçün müntəzəm olaraq edilməsi lazım olan bir prosesdir. Bezi dəyişdirərkən aşağıdakı addımlara əməl etməlisiniz:

**1. Tələb olunan ləvazimatları hazırlayın**

Bezi dəyişdirməyi asanlaşdırmaq üçün əlinizdə aşağıdakı əşyaların olması vacibdir:

Yeni parça
Nəm salfetlər və ya pambıq və isti su
Səpgi və ya qoruyucu bariyer kremi
Dəyişən mat və ya təmiz dəsmal

**2. Əllərinizi təmizləyin**

Prosedura başlamazdan əvvəl əllərinizi yuyun. Bu, körpənizə qulluq edərkən gigiyenanı qorumağa kömək edir.

**3. Körpəni hazırlayın**

Körpənizi dəyişən döşəyin üzərinə qoyaraq onu rahat vəziyyətdə saxlayın.

Körpənin təhlükəsizliyini təmin etmək üçün uşaq bezi dəyişdirərkən heç vaxt körpəni tək qoymayın.

**4. Çirkli bezi çıxarın**

Çirklənmiş parçanı diqqətlə çıxarın və nəcisin təmizlənməsi üçün parçanın təmiz bir hissəsini istifadə edin. Çirkli parçanı möhkəm bükün və zibil qutusuna atın.

**5. Körpənin dərisini təmizləyin**

Körpənizin cinsiyyət sahəsini nəm salfet və ya ilıq suda isladılmış pambıqla yumşaq bir şəkildə təmizləyin. Qız körpələrini öndən arxaya təmizləmək infeksiya riskini azaldır.

**6. Dərini qurudun**

Təmizlədikdən sonra körpənin dərisini yumşaq bir dəsmal ilə yumşaq bir şəkildə qurudun. Quru dəri səpgi riskini azaldır.

**7. Qoruyucu krem çəki**

Səpginin qarşısını almaq üçün körpənin dərisinə nazik bir təbəqə ilə uşaq bezi səpgisi kremi çəkin.



**8. Yeni bezi taxın**

Yeni uşaq bezini körpənin altına qoyun və lenti körpənin belinə tam oturacaq şəkildə bərkidin. Uşaq bezinin çox sıx və ya çox boş olmadığından əmin olun.

**9. Geyimlərini təşkil edin**

Bezi dəyişdirildikdən sonra körpənizi yenidən paltarına qoyun və onun rahat oturduğundan əmin olun.

**10. Əllərinizi yenidən yuyun**

Prosedurdan sonra əllərinizi yuyaraq gigiyenanı təmin etməyi unutmayın.

## Bezi dəyişərkən diqqət etməli olacaqlar

**Daimi dəyişiklik:**

Bezi tez-tez dəyişdirmək səpgi və qıcıqlanmanın qarşısını almaq üçün vacibdir. Xüsusilə körpənin nəcis etdiyi uşaq bezləri dərhal dəyişdirilməlidir.

**Gecə dəyişikliyi:**

Gecə boyu yatan körpələrdə uşaq bezinin dəyişdirilməsi yalnız defekasiya zamanı edilməlidir. Bu, körpənin yuxu rejiminin pozulmasının qarşısını alır.

**Nəm salfet seçimi:**

Ətirsiz və spirtsiz salfetlərdən istifadə edərək körpənizin həssas dərisini qoruya bilərsiniz.

**Dəri reaksiyalarına diqqət yetirin:**

Körpənizin dərisində qızartı və ya qıcıqlanma hiss etsəniz, istifadə etdiyiniz uşaq bezini və ya salfetini dəyişdirməyi düşünə bilərsiniz.

**Körpənizlə ünsiyyət qurun:**

Bezi dəyişdirərkən körpənizi danışaraq və ya gülümsəyərək rahatlaşdıra bilərsiniz. Bu, uşaq bezini dəyişdirməyi daha zövqlü edə bilər.

## Səpgi və qıcıqlanmanın qarşısının alınması üsulları

Bezi dəyişdirərkən düzgün üsullar tətbiq edilməzsə, səpgi və dəri qıcıqlanması kimi problemlər yarana bilər. Bu problemlərin qarşısını almaq üçün bəzi məsləhətlər:

**Bezi tez-tez dəyişdirin:**

Yaş və ya çirkli uşaq bezləri körpənin dərisində uzun müddət qalmamalıdır.

**Dərinin nəfəs almasına icazə verin:**

Körpənizi gün ərzində qısa müddətə uşaq bezi olmadan buraxmaq onun dərisinin nəfəs almasına kömək edə bilər.

**Keyfiyyətli uşaq bezi səpgi kremlərindən istifadə edin:**

Səpgi əlamətlərini gördükdə, qoruyucu kremlər tətbiq etməklə problemin irəliləməsinin qarşısını ala bilərsiniz.

**Doğru ölçü bezi istifadə edin:**

Çox dar olan uşaq bezləri dəridə sürtünməyə səbəb ola bilər. Körpənizin çəkisinə uyğun uşaq bezlərindən istifadə edin.

**Kimyəvi məhsullardan qaçın:**

Tərkibində ətir, spirt və ya sərt kimyəvi maddələr olan məhsullardan çəkinin.

**Nəticə**

Körpənizin rahatlığını və dəri sağlamlığını qorumaq üçün uşaq bezi seçimi və uşaq bezinin dəyişdirilməsi diqqət yetirilməli vacib bir məsələdir. Düzgün ölçüdə uducu və dəriyə uyğun uşaq bezlərindən istifadə körpənizin rahat böyüməsinə kömək edəcək. Bundan əlavə, uşaq bezi dəyişdirərkən gigiyena qaydalarına diqqət yetirmək və körpənizin ehtiyaclarına həssas olmaq səpgi və digər dəri problemlərinin qarşısını almağa kömək edir. Körpə baxımı zamanı bu addımlara diqqət yetirərək həm sizin, həm də körpənizin həyatını asanlaşdıra bilərsiniz.

***Ayşən Vəli***

# Hindistan-Pakistan münaqişəsi: NÜVƏ MÜHARİBƏSİ TƏHLÜKƏSİ

***Dünya ictimaiyyətinin diqqətini indi daha çox Hindistanla Pakistan arasında olan gərginli cəlb edir. Əlbəttə ki, bu, səbəbsiz deyil. Hər kəs çox yaxşı bilir ki, bu iki ölkə arasında olan münaqişə heç də Rusiya-Ukrayna müharibəsi timsalında, digər münaqişələrlə müqaisə belə edilən deyil. İstər Hindistanın, istərsə də Pakistanın mövcud potensialı bəllidir. Hazırda Hindistan-Pakistan münaqişəsi bütövlükdə dünya üçün nüvə müharibəsi təhlükəsi deməkdir.***



## Hindistan və Pakistanın qarşıdurması dünya üçün təhlükəlidir

Ukraynadakı hərbi əməliyyatlarla bağlı dünya mediasının marağı birdən-birə tamam başqa mövzu ilə əvəz olundu. Sözsüz ki, bu, heç də təsadüfi ola bilməzdi. İki nüvə dövləti, yəni, Hindistan və Pakistan arasında mümkün ola bilən, başlaya bilən müharibənin diqqəti cəlb etməyəcəyini təsəvvür belə etmək olmaz. Unutmaq lazım deyil ki, hər iki ölkənin hər birində təxminən yüz əlli döyüş başlığı var. Hər halda bu arada Jirinovskinin Hindistanla Pakistan arasında müharibə olacağını, nəticədə 200 milyon insanın öləcəyini, bir milyard insanın isə qaçqın vəziyyətinə düşəcəyini proqnozlaşdıran bir açıqlaması da yada düşür. Xüsusən də maraqlı odur ki, bu müharibənin başlanacağını proqnozlaşdıran təkcə Jirinovski deyildi. Məsələ burasındadır ki, məhz 2019-cu ildə Prinston Universiteti də 2025-ci ildə Hindistan hökumət rəsmilərinə hücumla böyük müharibənin başlayacağını bildirib.

Sadalananlar onu deməyə əsas verir ki, hələ öncədən belə dünyada müharibə riski ilə bağlı xəbərdarlıqlar və narahatlıqlar var. İstənilən halda nüvə müharibəsinin bütövlükdə dünya üçün təhlükəli olduğu təkzibedilməzdir. Yəqin ki, bunun nə dərəcədə təhlükəli olduğu hər kəsə bəllidir. Məhz nüvə silahının hansı fəlakətlərə, qlobal faciələrə gətirib çıxara bildiyini zənn edirik ki, bilməyən yoxdur. Hələ də Çernobıl qəzasının fəsadları yaşanırsa, hələ də ötən əsrin ortalarında olan Naqasaki və Hirasima faciəsinin dəhşəti yaddaşlardan silinməyibsə, deməli, bunun nə demək olduğu heç kim üçün müəmmalı deyil. Yaponiyanın Hiroşima və Naqasaki şəhərlərinə ABŞ aviasiyası tərəfindən atılan atom bombası bəşər tarixində nüvə silahının hərbi məqsədlə tətbiq olunduğunun ilk və yeganə nümunəsi oldu və hələ də nüvə bəşəriyyətin ən təhlükəli silahı sayılır. Çünki nüvə silahı istifadə edilən zaman, o partlayan zaman hədsiz, yüksək dozada radiasiya əmələ gəlir və radiasiya da təksə insanlara yox, bütün canlılara-heyvanlara, bitkilərə belə mutasion bir təsir göstərir və təsadüfi deyil ki, Hiroşimo və Naqasakiyə atılan atom bombalarının indiyə qədər də fəsadları davam edir.

Xatırladaq ki, Hiroşimada olan partlayışın episentrinə yaxın olan şəxslər anındaca ölmüş və hətta onların bədənlərinin hissələrə ayrılaraq ətrafa dağılmışdır. Həmin vaxt havada uçan quşlar belə yanmış, işıq şüalanması paltarları belə yandıraraq, özünün "qara rəsmini" bədəndə həkk etmişdir. Partlayışın ardınca insan ancaq siluetləri divarda qalmışdır. Kənarda olan insanları belə işıq parıltısı kor etmişdir. Episentrin yaxınlığında olan hər şeyi partlayış dalğası dərhal yox etmiş, episentrdən 800 m məsafədə yerləşən 90 % insan bir neçə dəqiqədən sonra ölmüşdür. Partlayışdan ölənlərin sayı 70 mindən yuxarı, bəzi mənbələrə görə, 80 minə çatmışdır. Məsələ burasındadır ki, zərər çəkən təkcə partlayışa yaxın ərazilər sayılmır və partlayışın ardınca ölənlərin, xəstəliyə düçar olanların sayının durmadan artmağa başlaması faktı da məlumdur. Məlum olan həm də odur ki, radiasiya çirklənməsi adlandırılan fəsad doğulan uşaqların qüsurlu, şikəst doğulmasına gətirib çıxardı. Mutasiya dəyişikliyi belə hələ də davam edir və bütün dünya hələ də bu dəyişikliyin mənfi təsirlərinə məruz qalır. Hələ də bütün dünya həmin partlayışın acı nəticələrini müşahidə edir. Deməli, nüvə silahından istifadə edilməsinin bütün dünya üçün nə demək olduğu bəllidir. Bir halda ki, hər iki ölkənin nüvə silahı, 150 döyüş başlığı varsa, bu ölkələr bir-biri ilə müharibə şəraitindədirlərsə, deməli, Hindistan və Pakistanın qarşıdurması bütövlükdə, dünya üçün təhlükəlidir.

## Münaqişə getdikcə güclənir, tərəflər bir-birini ittiham edir və hətta ara getdikcə daha da qızışmağa başlayır

Hər iki tərəf artıq qarşılıqlı ticarəti, viza verilməsini dayandırır, səfirliklərin sayını sıfıra endirir və bir-birinin təyyarələri üçün hava məkanını bağlayır. Bir sözlə, münaqişə getdikcə güclənir. Hindistan misli görünməmiş tədbirlərə əl atır, Pakistana axan Hind çayının qarşısını belə kəsməyə çalışır. "1960-cı il Hind-Pakistan Paktı dərhal və Pakistanın terrorizmi dəstəkləməkdən dönməz şəkildə imtina etdiyinə dair aydın təminat verənə qədər ləğv ediləcək", deyə Hindistanın Xarici İşlər Naziri Vikram Misri bildirib. Sözsüz ki, bu, Hindistan tərəfinin möveyidir və heç də alqışlanılmır. Ələlxüsus da, Pakistana axan çayın qarşının kəsilməsi özü belə tammiqyaslı müharibə elan etmək deməkdir və heç də müsbət qarşılana bilməz.

Diqqətə çatdıraq ki, Pakistanın Xarici İşlər Nazirliyinin sözçüsü Şəfqat Əli Xan da su məsələsi ilə bağlı öz mövqeyini bildirib. "Su Pakistanın həyati milli maraqlarıdır, onun 240 milyonluq əhalisi üçün həyat xəttidir və onun mövcudluğu nəyin bahasına olursa olsun təmin ediləcək", deyə bəyan edən XİN sözçüsü bununla öz etirazını, narazılığını bildirib. Haqlı olaraq, İslamabad Pakistanın terror aktında iştirakına dair sübut tələb edir. Məsələ burasındadır ki, Hindistan ancaq kəşfiyyat məlumatlarına istinad edir. Bununla isə Pakistan qətiyyən razılaşmır və öz ölkəsini haqlı hesab edir. Əslində, həqiqətən də sübut edilmədən ittiham etmək şər atmaqdan başqa bir şey sayılmaz. Elə məhz bu baxımdan da Pakistan haqlı olaraq tələblə çıxış edir.

Bəli, münaqişə getdikcə güclənir, tərəflər bir-birini itiham edir, hətta ara getdikcə daha da qızışmağa başlayır. "Artıq sərhəddə birbaşa Hindistan və Pakistan silahlı qüvvələri arasında döyüşlər gedir və təkcə sərhədçilər deyil, həm də silahlı qüvvələr arasında toqquşmalar var, lakin bütün bunlar daha çox kiçik silahlarla döyüşü xatırladır", deyə hər iki tərəfin hərbi ekspertləri hələlik bu qənaətdədirlər. Deməli, artıq silahlı qarşıdurma etiraf edilir və çox güman ki, bununla yekunlaşana oxşamadığı da qeyd edilir. Maraqlıdır, bunla yekunlaşmayacağı qənaəti nədən xəbər verir? Görəsən, daha nələr gözlənilir? Yəni, həqiqətən də nüvə müharibəsi barədə proqnozlar düz çıxacaqmı?

## Pakistan və Hindistan arasında nüvə müharibəsinin nəticələri nəyə aparıb çıxara bilər?

Qərb tədqiqatçıları artıq iki nüvə dövləti arasında gedən döyüşün dəhşətli mənzərəsini "təsvir" ediblər. Onlar müharibənin ilk günlərində Hindistan və Pakistanda silsilə zərbələrdən sonra 125 milyona qədər insanın öləcəyini proqnozlaşdırırlar. Hindistan artıq səmaya qırıcı təyyarələr göndərib, Pakistan isə qoşunlarını tam hazırlıq vəziyyətinə gətirib. "Onlar hücuma başlasalar və ya bu cür hərəkətlərə davam etsələr, ciddi şəkildə cavab veriləcək və aydındır ki, bu halda da tammiqyaslı müharibə olacaq", deyə Pakistanın müdafiə naziri Havaca Məhəmməd Asif açıq şəkildə bildirib.

Bəli, söhbət iki nüvə dövlətindən və onlar arasında olan müharibədən gedir. Belə bir məqamda dünya narahat olmalı deyilmi? Əlbəttə ki, olmalıdır. Xatırladaq ki, Hindistan və Pakistan arasında sonuncu münaqişə 2019-cu ildə baş verib, bir neçə ay davam edib və Hindistanın Pakistandakı terrorçu bazalarına məhdud hava zərbələri endirməsindən sonra başa çatıb. Onu da diqqətə çatdıraq ki, İslamabad artıq məhz nüvə silahı ilə cavab verəcəyi ilə o zaman da hədələmişdi. Bəli, iyirmi il bundan əvvəl tərəflər tammiqyaslı hərbi münaqişə ərəfəsində idilər və o zaman qoşunlar bir bölgədə deyil, bütün sərhəd boyu yerləşdirilmişdilər. Belə bir zamanda tərəflər danışıqların nəticələrinə əsasən bəzi təhlükəli addımlardan çəkindirilmişdilər. "Gərginliyin ən təhlükəli vaxtı 2001-2002-ci illərdə olub və nüvə qarşıdurması elə o zaman da gözlənilirdi. Məsələ burasındadır ki, yalnız iki ölkə liderləri arasında aparılan danışıqlar hər iki tərəfi taktiki nüvə silahından istifadə etməkdən çəkindirdi", deyə şərqşünas və tarix üzrə fəlsəfə doktoru Vladimir Sotnikov bildirib və belə məlum olur ki, çoxları bu qənaətdədirlər.

Nüvə silahından istifadə edilməsindən çəkindirilmək və ümumiyyətlə, belə bir qənaətdə olmaq heç də təsadüfi deyil. Ona görə ki, tərəflər özləri də yaxşı bilirlər ki, nüvə müharibəsi çox böyük itgilər deməkdir. Yaxşı bilirlər ki, bunun acı nəticələri hər iki dövlətə aid olacaq və ağrısını hər ikisi də çəkməli olacaq. Lakin, təkcə Hindistan, yaxud da, təkcə Pakistan çəkməyəcək axı bu müharibənin ağrısını. İki ölkə arasında olan nüvə müharibəsi baş tutarsa, bunun nəticələri ümumilikdə dünyamız üçün təhlükələr, faciələr vəd edir. Öncə də qeyd olunduğu kimi, nüvə silahı nəinki istifadə edildiyi zaman, hətta uzun bir müddət ərzində özünün davamlı olan fəsadları ilə fərqlənən silahdır. Nüvə müharibəsi olacağı təqdirdə kütləvi insan tələfatının olacağı, ətraf mühitdə radiasiya çirklənməsi, hətta zəhərlənmə hadisələrinin davamlı şəkildə müşahidə ediləcəyi danılmazdır. Bunu nəinki nəzəriyyəçilər deyillər, bunu təcrübi olaraq söyləmək də çətin deyil və qeyd olunduğu kimi Hiraşima və Naqasaki kimi bir hadisə, onun fəsadları heç kəs üçün sirr deyil. Deməli, nüvə müharibəsi olacağı təqdirdə nələrin baş verə biləcəyi elə indidən məlumdur...

***İnam Hacıyev***

# Talassemiya və qohum nikahlar: vaxt daralır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb*







Mayın 8-i, 1993-cü ildən ”Ümumdünya Talassemiya Günü” kimi qeyd olunur. Bu gün dünyada milyonlarla insanı əhatə edən genetik qan xəstəliyi olan talassemiya haqqında məlumatlılığın artırılması məqsədi daşıyır. Qanımız, bütün orqanizmin orqan və toxumalarını qidalandıran həyati bir mayedir. Bədənimizdəki ümumi qan həcminin 45%-i qırmızı qan hüceyrələrindən (eritrositlər) ibarətdir. Qırmızı qan hüceyrələri tərkibindəki hemoglobinlə birlikdə toxumalara oksigen daşıyır. Hemoqlobinin strukturunda aşkar edilən qlobinin sintez pozğunluqları ”Hemoqlobinopatiyalar” adlanan xəstəliklər qrupu ilə nəticələnir. Bu xəstəliklər arasında ölkəmizdə ən çox rast gəlinən Beta Talassemiya xəstəliyidir.

Beta Talassemiyada hemoglobinin istehsalında çatışmazlıq və pozğunluq səbəbindən qanın toxuma və orqanlara daşıdığı oksigenin azalması müşahidə olunur. Buna uyğun olaraq Talassemiya dərinin solğunluğu, halsızlıq, asan yorğunluq, ürək döyüntüsü, inkişaf geriliyi kimi simptomlarla özünü göstərir. Bəzi hallarda dəmir çatışmazlığı anemiyası ilə birlikdə müşahidə edilsə də, çox vaxt dəmir çatışmazlığı anemiyası ilə qarışdırıla bilər və bu səbəbdən diaqnozun xüsusi testlə təsdiqlənməsi vacibdir.





Talassemiya daşıyıcılarında daşıyıcılarında yalnız bir gen qüsurlu olur. Bir insanın Talassemiya daşıyıcısı olub-olmaması qan analizi və hemoglobin elektroforez testləri ilə müəyyən edilə bilər. Bu gün talassemiya daşıyıcısı dəmir çatışmazlığı anemiyası qədər yayılmış vəziyyətdir. Dəmir çatışmazlığı diaqnozu qoyulan xəstələr müalicə müddətində yaxından izlənilməli, 1-2 aylıq dəmir müalicəsindən sonra yoxlanılmalıdır ki, Talassemiya daşıyıcısı olma ehtimalı şübhəli qalmasın. Xüsusilə nikahdan əvvəl talassemiya analizlərinin aparılması çox vacibdir. Valideynlərin hər ikisi talassemiya daşıyıcısıdırsa, o nikahdan normal uşaq doğulma şansı 25%, talassemiya daşıyıcısı olan uşağın olma şansı 50% və talassemiyalı uşağın doğulma şansı 25% olur. Valideynlərdən biri talassemiya daşıyıcısıdırsa, doğulan hər bir uşağın daşıyıcı olma ehtimalı 50% təşkil edir, lakin uşaqların heç biri talassemiya xəstəsi olmayacaq. Yəni daşıyıcı olmaq talassemiya xəstəsi olmaq demək deyil.

Talassemiyanın müalicəsi simptomlara hesablanır. Anemiya ilə əlaqəli simptomları aradan qaldırmağın ən effektiv yolu qan köçürülməsidir. Talassemiya daşıyıcıları üçün qəti müalicə sümük iliyinin transplantasiyasıdır. Bu gün kök hüceyrə və gen terapiyası, prenatal diaqnostika və preimplantasiya genetik diaqnostika üsullarından da istifadə edilir. Talassemiyanın müalicəsi həm xəstə, həm də ailəsi üçün çox çətin və əziyyətlidir. Bir xəstənin illik müalicə xərcləri böyük məbləğlərlə ifadə edilir. Qüsurlu genlər vasitəsilə ötürülən Talassemiya kimi irsi xəstəliklərə qarşı mübarizədə ən effektiv üsul bu xəstəliklə bağlı ictimaiyyəti məlumatlandırmaq, daşıyıcıları aşkar etmək, onlara genetik məsləhətlər vermək, hamiləlikdən əvvəl diaqnostika üsullarından istifadə etməklə xəstə körpələrin dünyaya gəlməsinin qarşısını almaqdır. Buna görə də talassemiya bir çox ölkədə nəzarət altına alınıb.

Lakin talassemiya daşıyıcıları normal göründüyü üçün xüsusi Talassemiya testləri aparılmayınca onların daşıyıcı olub-olmadığını anlamaq mümkün deyil. Bu səbəbdən gənclər ailə qurmazdan əvvəl mütləq Talassemiya müayinəsindən keçməlidirlər. 2015-ci ildən etibarən Azərbaycanda da irsi xəstəliklərin qarşısının alınması məqsədilə nikahdan öncə cütlüklərin tibbi müayinədən keçməsi məcburi qaydada tətbiq edilir. Bu müayinələr arasında cütlüyün talassemiya daşıyıcısı olub-olmadığı da testlər vasitəsi ilə yoxlanılır.

Azərbaycanda Nazirlər Kabinetinin 2006-cı ildə imzaladığı qərardan bəri qəbul edilən dövlət proqramları talassemiyalı xəstələrə tibbi yardımın təkmilləşdirilməsinə yönəlib. Proqrama əsasən, talassemiyalı xəstələrə dərman preparatlarının verilməsi, qan və sümük iliyi köçürülməsi əməliyyatları təmənnasız həyata keçirilir. Dövlət Statistika Komitəsinin 2023-cü ilin sonuna olan məlumatına əsasən, tibb müəssisələrində qeydiyyatda olan talassemiya xəstələrinin sayı 4916 nəfərdir ki, onlardan 2361 nəfəri yetkinlik yaşına çatmayanlardır. 2023-cü ildə 385 nəfər yeni talassemiya xəstəsi qeydə alınıb və onlardan 190 nəfəri 0-17 yaş aralığında olan uşaq və yeniyetmələrdir. Azərbaycanda talassemiya daşıyıcılarının sayı bir milyondan çoxdur, bu da ölkə əhalisinin 10 faizini təşkil edir.

Azərbaycanda qohum evliliyinin çox olması genetik xəstəliklərin geniş yayılmasının əsas səbəbidir. Bu xəstəliklər arasında beta talassemiya, metabolik xəstəliklər, əzələ distrofiyaları, aralıq qızdırması daha çox yayılıb. Çünki ölkəmizdə bağlanan hər 100 nikahdan 20-si qohum nikahıdır. Qohumlar arasında nikahlar daha çox Şəki, Masallı və Bakıda yayılıb. BMT-nin Əhali Fondu Reproduktiv Sağlamlıq üzrə Milli Ofisinin məlumatına görə, həmin bölgələrdə irsi xəstəliklərin yayılma tempi 15 faiz təşkil edir. Bunlar arasında ən çox yayılanı da talassemiyadır.

Talassemiya yoluxucu deyil, kontakt və ya başqa vasitələrlə ötürülmür. Talassemiya əlaməti irsi xüsusiyyətdir. Müxtəlif növ talassemiyalar anadan və ya atadan olan genlər vasitəsilə uşağa ötürülür. Daşıyıcı insanlar prenatal diaqnoz üsullarından istifadə edərək sağlam uşaq sahibi ola bilərlər.

***Lalə Mehralı***



SON SƏHİFƏ

# SƏS

8 may
2025-ci il

# Azərbaycana turistlər ən çox hansı ölkələrdən gəlir?



## EKSPERT AÇIQLADI

"Hal-hazırda statistikaya görə ölkəmizə əsasən ən çox Rusiyadan qonaqlar gəlir. Amma nəzərə alsaq ki, əksəriyyəti bizim öz vətəndaşlarımızdı və daha sonradan rus vətəndaşlığı alıblar". Bu sözləri SİA-ya açıqlamasında turizm üzrə ekspert Əziz Şiriyev deyib. Onun sözlərinə görə, həmin insanlar öz evinə qayıdırmış kimi edirlər və heç bir oteldə qalmırlar: "Rus vətəndaşlığını alan insanların təbii ki, Azərbaycanda öz evləri var və orada qalırlar. Xarici pasportu olmasına baxmayaraq tamamilə turist sayılmırlar.

İkinci yerdə gedən Hindistan ölkəsindən kifayət qədər ölkəmizə qonaq gələn turistlər var. Dünyada əhalisinə görə, Hindistan hətta Çin ölkəsini belə keçib. Düşünürəm ki, yaxın gələcəkdə Azərbaycanla Çin arasında olan siyasi və iqtisadi münasibətlər yüksək həddə çatır. Bunun nəticəsində viza rejiminin ləğv olması Çin ölkəsindən də xeyli turistlərin gəlməsinə səbəb olacaq. Hal-hazırda bir ekspert olaraq mənə görə birinci yerdə ölkəmizə gələn Hindistan vətəndaşlarıdır. Hindistan vətəndaşları gələndə isə qrup halında gəlir. Qruplarda isə 700, 2000 yaxud 3000 nəfər insan olur. May ayından etibarən isə hər il bu adət halını alıb".

*Xeyrənsə Piriyeva*

## BAŞSAĞLIĞI

Sumqayıt şəhərindəki 1 nömrəli Birləşmiş Xəstəxananın baş həkimi Mətləb Musayev və xəstəxananın bütün kollektivi kardiologiya şöbəsinin həkimi Cabir Məcidova anası

**Güllübəyim xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***

Sumqayıt şəhərindəki 1 nömrəli Birləşmiş Xəstəxananın kardiologiya şöbəsinin müdiri Vəfa xanım Əliyeva, həkimlər Sevinc xanım Əliyeva, Lətafət xanım Orucova, Aida xanım Məmmədova, Ayaz Əliyev, Şahin Verdiyev, Fidan xanım Allahverdiyeva, Gülbəniz xanım Xəlilova, Vüsalə xanım Mikayılova, Təranə xanım Sultanova iş yoldaşları Cabir Məcidova anası

**Güllübəyim xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***

Yazıçı-dramaturq, rejissor, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu ailə üzvlərilə birlikdə Sumqayıt şəhərindəki 1 nömrəli Birləşmiş Xəstəxananın kardiologiya şöbəsinin həkimi Cabir Məcidova anası

**Güllübəyim xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## "Barselona"nın bəxtsizliyi - ardıcıl 10 ildir ki, finala həsrət qalıb




**"Barselona" klubu ardıcıl 10-cu mövsüm UEFA Çempionlar Liqasının finalına vəsiqə qazana bilməyib. Bu, ötən gün turnirin yarımfinalında "İnter"ə (İtaliya) məğlubiyyətdən (3:4) reallaşıb.**

7 qolun vurulduğu və əlavə vaxtda İtaliya klubunun qələbə qazandığı görüşdən sonra "Barselona" iki oyunun nəticəsinə (ilk oyun - 3:3) görə cari mövsüm UEFA Çempionlar Liqasında mübarizəni dayandırıb. Komanda sonuncu dəfə 2014/2015 mövsümündə turnirin finalında oynayıb. Sözügedən görüşdə "Yuventus"la qarşılaşan "Barselona" 3:1 hesablı qələbə qazanıb.

## Bank kartlarından daha 13 min 500 manat oğurlanıb...



Vətəndaşların bank kartlarından oğurluqlar davam edir. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır: "Bu məlumatlar naməlum şəxslərə verildiyi halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında sizə zərər vuracaqlar".

Bildirilib ki, mayın 6-da ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 3400, 2500, 2000, 1500, 1302, 999, 840, 490, 285, 161, 30, 16, 5 manat pul vəsaitləri bank kartlarından oğurlanıb. DİN bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edir: "Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var".


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
**Tiraj: 3000**